# Milli Məclis Prezidentə müraciət etdi



Milli Məclis növbədənkənar seçkilərlə bağlı Azərbaycan Prezidentinə müraciət edib

Spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan dünya miqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilib. Noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 Azərbaycanda keçiriləcək.

Deputat Soltan Məmmədov deyib ki, beynəlxalq mötəbər tədbirlərə hazırlıq kifayət qədər vaxt və enerji tələb edir. Belə qlobal əhəmiyyətli beynəlxalq tədbirlərlə eyni vaxtda seçki kampaniyasının təşkili kifayət qədər çətin prosesdir.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

22 İYUN ŞƏNBƏ 2024 № 23 (4174)

Qiyməti - 40 qəpik



## İSTEHLAK KREDİTİ GÖTÜRMƏK ASANLAŞACAQ

İstehlak krediti alan zaman zamin tələbi ilə bağlı problem artıq həllini tapmaq üzrədir. Banklar kredit götürmək istəyən vətəndaşlardan bundan sonra həyat sığortası tələb edəcəklər.

SƏHİFƏ 12-də



## TURİZM SEKTORUNUN SAĞALMAYAN YARASI

Yol kənarındakı kafe və restoranların əsas vəzifəsi turistlərə diqqət yetirmək olmalıdır. Xidmət dedikdə isə təkcə yemək və ya çay təqdim etmək deyil, ünsiyyət bacarığı, etiket qaydaları nəzərdə tutulur.

SƏHİFƏ 11-də



## YAŞLARI KİÇİK, XƏRCLƏRİ BÖYÜK OLANLAR

Övladını bölgələrdə düşərgələrə göndərmək istəyən valideynlər beş gecə, altı gün üçün 800-850 manat ödəməlidirlər. Bir ailədən iki uşaq qeydiyyatdan keçəcəyi təqdirdə, 100 manat endirim nəzərdə tutulub.

SƏHİFƏ 7-də




TÜRK DÖVLƏTLƏRİNİN LİDERLƏRİ ŞUŞADA TOPLAŞACAQ

# TURAN YOLUNDA ŞUŞA ZİRVƏSİ

Şuşada planlaşdırılan Zirvə görüşünü Azərbaycan və Türkiyə liderlərinin 2021-ci ilin 15 iyununda imzaladıqları "Şuşa Bəyannaməsi"nin məntiqi nəticəsi və siyasi davamı hesab etmək olar.

**ZİRVƏ GÖRÜŞÜNÜN RƏSMİ TƏSDİQİ**

Azərbaycan və Türkiyə xarici işlər nazirləri Ceyhun Bayramov və Hakan Fidan Türk Dövlətləri Təşkilatı liderlərinin Şuşada keçiriləcək qeyri-rəsmi zirvə görüşünə dair hazırlıq məsələlərini müzakirə ediblər. Bu, Şuşa sammitinin reallığa çevrilməsinin rəsmi şəkildə təsdiqi deməkdir.

**ŞUŞANIN XÜSUSİ YERİ VƏ MİSSİYASI**

Azərbaycanın qələbəsi tək regional transmilli layihələr üçün deyil, həm də geniş arealda - Şərqlə Qərbin kəsişməsində yerləşən türk dövlətləri birliyinin daha da yaxından işbirliyinə girməsi üçün geosiyasi stimul rolunda çıxış etdi. Bu prosesdə Şuşanın xüsusi yeri və missiyası var.

SƏHİFƏ 4-də

Həmvətənlərimizə ana dilini öyrədən müəllim

## "UŞAĞA "SABAHIN XEYİR", "SALAM" DEMƏK ÇƏTİNDİRMİ?"



Hüzurə Ağayeva: "Bir dəfə ABŞ-də rəfiqəmlə söhbət edirdik, bir nəfər də bizə qulaq asırmış. O, bizə yaxınlaşdı və ingiliscə soruşdu ki, siz hansı dildə danışırsınız? Dedik, Azərbaycan dilində. Dedi ki, "mən sizə qulaq asmaq üçün iki avtobus buraxmışam. Necə gözəl, musiqili diliniz var". O qadın italyan idi. Əgər əcnəbi bizim dilimiz haqqında bu cür yüksək fikirdədirsə, biz niyə danışmayaq?"

SƏHİFƏ 8-də



## BƏD NİYYƏTLƏRİN GÖSTƏRİCİSİ

Fransanın Ermənistana "Caesar" özüyeriyən artilleriya sistemi göndərməsi sülh danışıqlarını pozmağa yönəlmiş addımdır. Belə davam edərsə, Hərbi Qənimətlər Parkının yeni eksponatları "Caesar"lar olacaq.

SƏHİFƏ 5-də



## TAKSİ QİYMƏTLƏRİ KƏSKİN ARTACAQ?

İyulun 1-dən etibarən Azərbaycanda taksilər yeni qaydalarla fəaliyyət göstərməlidirlər. Lakin indiyə qədər cəmi 5131 sürücü taksi fəaliyyəti üçün icazə alıb. Yəni rəsmi olaraq Bakıda hələlik bu qədər taksi fəaliyyət göstərə bilər.

SƏHİFƏ 14-də



## KÜÇƏLƏRDƏ BÖYÜYƏN FİDANLAR

Küçə uşaqları ilə bağlı problem cəmiyyətdə ciddi narahatlıq yaradır. Reallıqda onların sayı ilə bağlı etibarlı rəqəmlər olmasa da, gözümüzün qarşısında canlanan mənzərə həyəcan təbili çalmağın vaxtı olduğunu deyir.

SƏHİFƏ 9-da



Fransanı gözləyən təhlükə

SƏHİFƏ 6-da



Ölümü yaxınlaşdıran idxal

SƏHİFƏ 10-da



Az sözlə böyük rollar yaradan aktyor

SƏHİFƏ 15-də



Piyada həyatını sürücüyə etibar etməməlidir

SƏHİFƏ 13-də



Pep Qvardiola məktəbi

SƏHİFƏ 16-da



# Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

İyunun 20-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək, ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib.

Prezident İlham Əliyev regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu qeyd edərək, ikitərəfli əsasda normallaşma prosesi və sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. ABŞ-nin sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımından vacibliyini qeyd edib.

Prezident İlham Əliyev artıq keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün institutların fəaliyyətinə rəsmən xitam verilməsinin vaxtının çoxdan yetişdiyini əlavə edib.

Prezident İlham Əliyev enerji sahəsində ölkələrimiz arasında çoxillik uğurlu əməkdaşlığa toxunub, iqlim dəyişikliyi və COP29-a hazırlıq prosesi çərçivəsində ölkələrimizin nümayəndə heyətləri arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib və COP29-un uğurla nəticələnməsi üçün ABŞ-nin dəstək niyyətinə görə təşəkkür edib. Dövlətimizin başçısı Azərbaycanın da ABŞ ilə əlaqələrə əhəmiyyət verdiyini və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını dəstəklədiyini bildirib.



# BOTANİKA İNSTİTUTUNUN YENİ BİNASI İSTİFADƏYƏ VERİLDİ

**45 hektardan artıq ərazini əhatə edən Nəbatat Bağında 247 növ ağac və 162 növ kol bitkisi qorunur. Yenidənqurma zamanı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verib.

### İNZİBATİ BİNA ƏSASLI TƏMİR EDİLİB

Bildirilib ki, 45 hektardan artıq ərazini əhatə edən bağda 247 növ ağac və 162 növ kol bitkisi qorunur. Yenidənqurma zamanı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib. Beş mərtəbədən ibarət olan yeni binanın ümumi sahəsi 3700 kvadratmetrdir. Binanın birinci mərtəbəsi laboratoriya sektorlarından ibarətdir. Burada bitki ehtiyatları və etnobotanika, həmçinin toxum bankı, bitki introduksiyası şöbələri yerləşir. Binanın ikinci mərtəbəsində 80 nəfərlik akt zalı, üç laboratoriya, müdafiə şurası, Botanika İnstitutunun elmi şurasının katibliyi, mühasibatlıq yerləşir. Üçüncü mərtəbədə isə geobotanika, ictimaiyyətlə əlaqələr, eksperimental botanika və beynəlxalq əlaqələr şöbələri fəaliyyət göstərəcək. Ali bitkilər sistematikası və herbari fondu dördüncü mərtəbədə yerləşir. Botanika İnstitutunun Herbari Fondu 1936-cı ildə institut yarandığı vaxtdan fəaliyyət göstərir. Burada Azərbaycanla yanaşı, digər ölkələrin altı yüz minə yaxın flora növü qorunur.

Eyni zamanda, Mərkəzi Nəbatat Bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik aypara şəkilli inzibati binası da əsaslı təmir edilib.





### MÜASİR TİPLİ ORANJEREYA

Mərkəzi Nəbatat Bağı ərazisində tikintisi davam etdirilən müasir tipli oranjereyaya da baxış keçirilib. Bildirilib ki, oranjereyanın eni 19, uzunluğu 47, hündürlüyü isə 15 metrdir. Daxilində yerdən 3 metr hündür körpü və hər iki qapını birləşdirən piyada yolu var. Oranjereya müasir tipli isitmə, soyutma və nümləndirmə avadanlıqları ilə təchiz olunacaq. Üzərindəki şüşə sisteminin 40 ədədi avtomatik açılaraq mövsümə uyğun havalandırmanı təmin edəcək.

Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmağa başlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bitki biomüxtəlifliyinin qorunması və səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri məhz Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilib.

### İNSTİTUTDA DÖRD YERLİ, İKİ BEYNƏLXALQ MƏLUMAT BAZASI

Hazırda Mərkəzi Nəbatat Bağında “Bitki ekologiyası”, “Dekorativ bitkilərin introduksiyası və seleksiyası”, “Qida və dərman bitkilərinin biokimyası”, “Oduncaqlı bitkilər”, “Tropik və subtropik bitkilər” laboratoriyaları ilə yanaşı, “Strateji inkişaf, beynəlxalq əməkdaşlıq və layihələrin idarə olunması”, “Bioloji kolleksiyalar”, “Bağçılıq və landşaft quruculuğu”, “Təchizat və xidmət” və digər şöbələr fəaliyyət göstərir.

Botanika İnstitutunda



elmin informasiya təminat sisteminin təkmilləşdirilməsi və gücləndirilməsi məqsədinə xidmət edən dörd yerli, iki beynəlxalq məlumat bazası fəaliyyət göstərir.

Botanika İnstitutu bu il COP15-də təsis olunmuş “Quraq Ərazilərdə Biomüxtəlifliyin Mühafizəsi İttifaqı”na (BCAA-Biodiversity Conservation Alliance for Arid Land) üzv seçilib.

## SOCAR-ın prezidenti Ukrayna səfiri ilə görüşüb



Azərbaycan və Ukrayna enerji sahəsində mövcud və gələcək əməkdaşlıq imkanlarını müzakirə edib.
"Report"un Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) istinadən verdiyi məlumata görə, bu müzakirələr SOCAR-ın prezidenti Rövşən Nəcəfin Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev ilə görüşündə aparılıb.
Görüşdə ikitərəfli əməkdaşlığın uğurlu inkişafından, o cümlədən "SOCAR Energy Ukraine" şirkətinin fəaliyyətindən məmnunluq ifadə edilib.
Görüş çərçivəsində həmçinin enerji keçidi, dekarbonizasiya və qarşılıqlı maraq doğuran müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Qarabağ "təmiz enerji" mərkəzinə çevriləcək



Azərbaycan hökuməti Qarabağ regionunu dinamik inkişaf edən "təmiz enerji" mərkəzinə çevirmək niyyətindədir.
"Report" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin Cəbrayıl, Qubadlı və Zəngilan rayonları üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilanda "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda 29-cu yüksək səviyyəli görüşdə çıxışı zamanı deyib.
"Cəbrayıl, Qubadlı və Zəngilanda zəngin günəş enerjisi resurslarından istifadə edərək, biz yaşayış binalarına və küçə infrastruktur sistemlərinə günəş panellərini inteqrasiya edirik. Bundan əlavə, elektrikli nəqliyyat vasitələri üçün günəş enerjisi doldurma stansiyaları, "ağıllı parkinq" və digər ekoloji cəhətdən təmiz həllər kimi təşəbbüslər davamlı təcrübələrin həyata keçirilməsinə sadiqliyimizi vurğulayır", - o bildirib.



# MİLLİ MƏCLİS PREZİDENTƏ MÜRACİƏT ETDİ

Milli Məclisdə qanunverici orqana növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə məsələ səsverməyə qoyularaq qəbul edilib. Müraciətin lehinə 105, əleyhinə isə bir nəfər səs verib.

Milli Məclisin növbəti plenar iclası keçirilib. Deputatlar ilk öncə Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi haqqında məsələni müzakirə ediblər.

### SPİKER SƏBƏBLƏRİ AÇIQLADI

Spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan dünya miqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilib. Noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 Azərbaycanda keçiriləcək. Bununla birlikdə, ölkəmizdə keçirilməsi planlaşdırılan Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası da noyabr ayına təsadüf edəcək. "Konstitusiyanın 98-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir", - spiker deyib.
Hər iki mühüm əhəmiyyət daşıyan proseslərin eyni vaxta təsadüf etdiyini diqqətə çatdıran S.Qafarova Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvlərinin parlamentə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi məsələsinə baxılması ilə bağlı qanunverici orqanın rəhbərliyinə müraciət etdiklərini bildirib.


Sahibə Qafarova

## "BU TƏDBİRLƏRƏ HAZIRLIQ VAXT TƏLƏB EDİR"

Məsələ ilə bağlı çıxış edən deputat Soltan Məmmədov deyib ki, noyabrda Azərbaycanda keçirilməsi planlaşdırılan beynəlxalq mötəbər tədbirlərə hazırlıq kifayət qədər vaxt və enerji tələb edir: "Nəzərə almalıyıq ki, belə qlobal əhəmiyyətli beynəlxalq tədbirlərlə eyni vaxtda seçki kampaniyasının təşkili kifayət qədər çətin prosesdir. Ona görə də hesab edirəm ki, Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların altıncı çağırış Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi barədə təşəbbüsü mövcud reallıqları nəzərə alan, ölkəmizin qarşısında duran vəzifələrin miqyasını düzgün qiymətləndirən yanaşmanın ifadəsidir". Onun sözlərinə görə, seçkilərin vaxtının irəli çəkilməsi COP29-un təşkili ilə bağlı bütün məsələlərin uğurla həll edilməsinə imkan verəcək, eyni zamanda, belə bir yüksək səviyyəli tədbir zamanı parlamentin tam gücü ilə fəaliyyət göstərməsinə şərait yaradacaq.

## "MÜXALİFƏT OLARAQ, BİZ BU QƏRARI DƏSTƏKLƏYİRİK"

Millət vəkili Fazil Mustafanın sözlərinə görə isə, Milli Məclisə seçkilərlə COP29-un eyni vaxta təsadüf etməsi seçkilərin keçirilməsini imkansız edir: "Bizdə iki yol qalırdı, ya seçkiləri önə çəkmək, ya da seçkilərin vaxtını uzatmaq. Amma Konstitusiyanın 84-cü maddəsinə görə, ancaq müharibə vəziyyətində seçkiləri uzada bilərdik. Bizdə də, Allaha şükür, müharibə şəraiti yoxdur. Seçkilərin vaxtını uzatmaq Konstitusiya pozuntusu olardı. Bunu kimlərsə spekulyasiya edəcəklərsə, hüquqi savadsızlıqlarını ortaya qoyacaqlar. Müxalifət partiyası olaraq, biz bu qərarı dəstəkləyirik".

### 105 LEHİNƏ, BİR ƏLEYHİNƏ

Müzakirələrdən sonra Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə göndəriləcək müraciət mətninin hazırlanması üçün komissiya yaradılıb. Komissiyanın hazırladığı müraciət mətnini deputat Tahir Rzayev oxuyub. Sonda Milli Məclisdə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə məsələ səsverməyə qoyularaq qəbul edilib. Müraciətin lehinə 105, əleyhinə isə bir nəfər səs verib.


Fazil Mustafa

# TURAN YOLUNDA ŞUŞA ZİRVƏSİ




Şuşa sammitini Azərbaycan və Türkiyə liderlərinin 2021-ci ilin 15 iyununda imzaladıqları “Şuşa Bəyannaməsi”nin məntiqi nəticəsi və siyasi davamı hesab etmək olar. Türkiyə və Azərbaycan Türk dünyasının inteqrasiyası prosesi ideyasının praktiki müstəvidə reallaşdırılmasının ən ardıcıl təmsilçiləridirlər.



RÜSTƏM QARAXANLI

İyunun 17-də Azərbaycan və Türkiyə xarici işlər nazirləri Ceyhun Bayramov və Hakan Fidan Türk Dövlətləri Təşkilatı liderlərinin Şuşada keçiriləcək qeyri-rəsmi zirvə görüşünə dair hazırlıq məsələlərini müzakirə etdilər. Bu, Şuşa sammitinin reallığa çevrilməsinin rəsmi şəkildə təsdiqi deməkdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan zirvə görüşündə iştirakını artıq bəyan edib. Digər türk dövlətləri liderlərinin də Şuşaya gələcəkləri şübhə doğurmur. Həm Azərbaycanın II Qarabağ savaşındakı parlaq qələbəsindən sonra Türk dünyası daxilində intensivləşən inteqrasiya təmaslarının dinamikası, həm də qardaş ölkələrin rəhbərlərinin işğaldan azad edilmiş torpaqları ziyarət etmələri bunu əminliklə deməyə əsas verir. Türk dövlətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və tikinti-quruculuq işlərində iştirak etmələri, yaxud bu prosesə həvəslə can atmaları onu göstərir ki, Qarabağ başda Şuşa olmaqla, Türk dünyasının mənəvi nüvəsi rolunu oynamağa başlayıb.

### İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏR TÜRK TORPAQLARIDIR

TDT-nin liderlərinin qeyri-formal görüşü Şuşada keçiriləcək ilk və son beynəlxalq əhəmiyyətli tədbir deyil. Şuşa son üç ildə siyasi, iqtisadi və mədəni əhəmiyyətli toplantı və görüşlər üçün fəal və əlverişli platformaya çevrilib. Ancaq türk dövlətləri başçılarının hamısının bir tədbirdə Şuşada bir araya gəlmələrinin bir simvolik, bəlkə də sakral əhəmiyyəti var: işğaldan azad edilmiş ərazilər türk torpaqları və Türk dünyasının ümumi dəyəridir. Buradan hasil olan ilkin nəticə budur ki, bu torpaqlar 30 il ərzində tək Azərbaycandan deyil, bütün türk aləmindən oğurlanmış, qəsb və talan edilmişdi. Şuşanın türk etnosunun məskunlaşdığı böyük coğrafi məkan üçün mənəvi mərkəz statusunu üzərinə götürməsi Azərbayacanın haqlı qələbəsini həzm edə bilməyənlər üçün geosiyasi ismarıcdır: istənilən revanşist təxəyyülün qarşısında tək Azərbaycan deyil, bütün Türk dünyası duracaq.

## ŞUŞANIN XÜSUSİ YERİ VƏ MİSSİYASI VAR

Azərbaycanın 44 günlük müharibədəki qələbəsi tək regional transmilli layihələr üçün deyil, həm də geniş arealda - Şərqlə Qərbin kəsişməsində yerləşən türk dövlətləri birliyinin daha da yaxından işbirliyinə girməsi üçün geosiyasi stimul rolunda çıxış etdi. Son üç il ərzində bu məkanda izlənən gəlişmələrə nəzər yetirdikdə, buna əmin olmaq mümkündür. Söhbət tək Azərbaycanın Türkiyə və ya Orta Asiya cümhuriyyətləri ilə təmaslarından getmir. Türkiyənin də Azərbaycan üzərindən Orta Asiya geosiyasi xəttini inkişaf etdirməsi bunu sübut edir. 44 günlük Vətən müharibəsi və onun nəticələri türk xalqlarının gəlmiş-keçmiş mütəfəkkirləri, fikir adamları, ədiblərinin müqəddəs arzusu olan vahid Turan məkanının reallaşması üçün açar rolunu oynayır və bu prosesdə Şuşanın xüsusi yeri və missiyası var.

### TÜRK DÜNYASININ İQTİSADİ MƏRKƏZİ

Prezident İlham Əliyevin Şuşa azad edildikdən sonra atdığı addımlar və həyata keçirdiyi tədbirlər Qarabağın tək ölkə daxilində deyil, həm də geosiyasi ölçüdə önəminin artacağından xəbər verirdi. Azərbaycan öz gücü və imkanları ilə 30 il Ermənistan tərəfindən talan edilmiş və dağıdılmış şəhər və kəndlərinin, sosial və iqtisadi infrastrukturunun bərpasını nəzərdə tutan layihələrə milyardlarla dollarlıq sərmayə yatırıb və bu proses davam edir. Bu, təbii ki, dünyanın diqqətini cəlb etməyə bilməz. Bu quruculuq işlərinə müxtəlif qabaqcıl ölkələrin aparıcı şirkətləri dəvət və cəlb olunublar. Həyata keçirilən və keçiriləcək iqtisadi layihələr qarşıdakı illərdə tək Azərbaycanın deyil, bütün regionun iqtisadi həyatında mühüm rol oynayacaq. Şərqi Zəngəzur özünün hava limanları, dəmir və avtomobil yolları ilə qlobal nəqliyyat dəhlizinin mühüm qovşağı rolunda çıxış edəcək. Davam edən və üfüqdə həlli görünməyən Rusiya-Ukrayna müharibəsi fonunda işğaldan azad edilmiş ərazilərimizin beynəlxalq əhəmiyyəti durmadan artır. Bütün bunlar beynəlxalq media və beyin mərkəzlərinin təsəvvüründə yalnız işğal bölgəsi, yaxud Ermənistan-Azərbaycan qarşıdurması prizmasından xatırlanan Qarabağın dünya üçün iqtisadi əhəmiyyətini xüsusilə qabardacaq.

Məhz bu faktor Qarabağ və Şərqi Zəngəzurun Türk dünyasının iqtisadi potensialı nöqteyi-nəzərindən mahiyyətini ortaya qoyur. Çünki burada gerçəkləşdirilən və ciddi potensialı gözlənilən transmilli layihələr qlobal anlamından əvvəl, həm də Türk dünyası üçün bir daxili iqtisadi faktor rolunda çıxış edir. Mühüm və həlledici siyasi qərarların məhz qeyri-formal görüşlərdə qəbul edildiyini nəzərə alsaq, TDT liderlərinin Şuşa zirvəsi mövcud iqtisadi təmasların daha da intensivləşməsi və yeni ideyalar, layihələrin həyata vəsiqə qazanması üçün bir təkan rolunu oynayacaq.




## TÜRK DÜNYASINI BİRLƏŞDİRƏN ŞUŞA

Şuşa sammitini Azərbaycan və Türkiyə liderlərinin 2021-ci ilin 15 iyununda imzaladıqları “Şuşa Bəyannaməsi”nin məntiqi nəticəsi və siyasi davamı hesab etmək olar. Türkiyə və Azərbaycan Türk dünyasının inteqrasiyası prosesi ideyasının praktiki müstəvidə reallaşdırılmasının ən ardıcıl təmsilçiləridirlər. Türkiyə bu tarixi məkanın Qərbdəki cinahında yerləşir və özünün qlobal rolu, hərbi qüdrəti və siyasi çəkisi ilə Türk dünyası birliyinin geosiyasi reallıq olmasının dünyaya qəbul etdirilməsi prosesində mühüm rola və söz sahibliyinə malikdir. Azərbaycan özünün artan siyasi nüfuzu və iqtisadi çəkisi, oynadığı iqtisadi rolu ilə bu prosesə əlavə güc və rəng qatır. Orta Asiyanın türk dövlətləri Çinlə Qərb arasındakı logistik qovşağın sahibləridirlər və zəngin iqtisadi potensialları ilə ümumtürk məkanının bazisi rolunda çıxış edirlər. Bütün bunların siyasi amilə çevrilməsi qardaş dövlətlər arasında imzalanan və imzalanacaq hüquqi sənədlərlə tənzimlənir. “Şuşa Bəyannaməsi” bu hüquqi bazanın özülünü təşkil edir. Çünki tək siyasi deyil, həm də ən əsası, təhlükəsizlik faktoru olaraq çıxış edir. Türk dövlətləri rəhbərlərinin Şuşada bir araya gəlmələri sözügedən bəyannamənin tək Türkiyə ilə Azərbaycan arasındakı anlaşma deyil, eyni zamanda, geosiyasi vahid olaraq çıxış edən Türk dünyası tərəfindən qəbul edilməsinin göstəricisidir.

XARİCİ GÜCLƏR PAŞİNYANA CƏLBEDİCİ VƏDLƏR VERƏRƏK, ONU SÜLH YOLUNDAN DÖNDƏRMƏYƏ ÇALIŞIRLAR

# BƏD NİYYƏTLƏRİN GÖSTƏRİCİSİ

Fransanın Ermənistana "Caesar" özüyeriyən artilleriya sistemi göndərməsi sülh danışıqlarını pozmağa yönəlmiş addımdır. Ermənistan rəhbərliyi belə davam edərsə, qələbəmizin simvoluna çevrilmiş Hərbi Qənimətlər Parkının yeni eksponatları "dəmir yumruq" altında əzilmiş "Caesar"lar olacaq.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan sülhə yaxınlaşdıqca, prosesi çıxmaza sürükləmək istəyənlər öz bəd niyyətlərini göstərməyə başlayıblar. Baş rolda həmişə olduğu kimi Emmanuel Makronun rəhbərlik etdiyi Fransadır. Onlar bu dəfə də İrəvana yağlı vədlər verərək baş nazir Nikol Paşinyanı sülh yolundan döndərməyə çalışırlar. Hədiyyə olaraq isə Paris İrəvanla bağlanmış yeni müqaviləyə əsasən, Ermənistana yaxın bir ildə 36 ədəd "Caesar" özüyeriyən artilleriya sistemi göndərəcək. Məsələyə rəsmi Bakının kəskin etirazı özünü çox gözlətməyib. Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaq.

### MAKRONUN DÜŞDÜYÜ İSTERİK VƏZİYYƏT

Fransanın Cənubi Qafqazda destruktiv fəaliyyəti genişləndirməsi əslində Makronun düşdüyü isterik vəziyyətin psixoloji təzahürləridir desək, yanılmarıq. Məlumdur ki, bir müddət əvvəl Avropa Parlamentinə keçirilən seçkilərdə Makronun partiyası Fransada seçicilərin ən az etimadını qazanmış iqtidar partiyası olaraq tarixə düşüb. Bu acı məğlubiyyətin əsas səbəbləri sırasında Makronun daxili və xarici siyasət kursunun ardıcıl olaraq iflasa uğraması və qarşısına qoyduğu hədəflərə sadəcə uzaqdan boylanmaq məcburiyyətində qalması göstərilir. Təbii ki, Makronun siyasi iflasının əsas səbəbləri sırasında Cənubi Qafqazın aparıcı gücü hesab edilən Azərbaycanın neokolonializmə qarşı apardığı mübarizə də var. Həmçinin Bakının iradəsi ilə bölgədə yaradılan yeni reallıqların Parisin dünyaya ağalıq iddiasının əsasını təşkil edən "19-cu əsr Fransanın siyasi ideyaları"nın burada keçərsiz olduğunu sübut etməsi də gözardı edilə bilməz.

### ERMƏNİ LOBBİSİNİN OYUNCAĞINA ÇEVRİLMİŞ REJİM

İndi isə Makron üzləşdiyi acı reallıqların yaratdığı təzyiqlərə tab gətirməyərək ölkədə növbədənkənar parlament seçkiləri elan edib. Hazırkı Milli Assambleyanın qatı ermənipərəst mövqedən çıxış etdiyi heç kimə sirr deyil. Burada əsas məqsəd isə Fransa daxilində böyük təsir gücünə malik erməni lobbisinin könlünü oxşamaqdır. İndi də Makron növbədənkənar parlament seçkilərində əsl fransız seçicinin etimadını əldə etmək əvəzinə, əlində siyasi kuklaya çevrildiyi erməni lobbisinin səslərini qazanmaq üçün yenidən dövlət maraqlarını ikinci plana keçirən assimmetrik qərarlar verməklə məşğuldur.

## SOYQIRIMI TÖRƏDƏNLƏRİN YETİRMƏSİ

Makronun iqtidarını qoruması üçün bu siyasi gedişin özünü müəyyən qədər doğruldacağı da istisna deyil. Ancaq sual olunur: Fransa cəmiyyəti ölkəni uçuruma aparan bu oyunbazın siyasət səhnəsindən uzaqlaşdırılması ilə bağlı qərar qəbul etməkdə bu dərəcədəmi acizdir? Görünən odur ki, prezident kürsüsünü özündən də çox istəyən Makron üçün Ukraynada həlak olacaq fransızlar, göndərdiyi " "Caesar" toplarının açacağı atəş nəticəsində başlaya biləcək yeni müharibədə həyatını itirəcək ermənilərin taleyi o qədər də önəmli deyil. Bəlkə də heç önəmli deyil. Axı Makron Şimali Afrikada milyonlarla günahsız insanın soyqırımını həyata keçirən, bununla fəxr etdiklərini açıqlayan və öz əməllərinə nümayişkaranə surətdə haqq qazandıran "siyasətçilər"in yetirməsidir.

## MAKRONUN ÇALDIĞI HAVAYA OYNAMAĞA BAŞLAYIB

Təəssüf doğuran məqam odur ki, Azərbaycanla ikitərəfli danışıqlar formatında sülhə doğru addım-addım yaxınlaşan Ermənistan rəhbərliyi də yenidən Makronun çaldığı havaya oynamağa başlayıb. Bir tərəfdən sülh bəyanatları versələr də, digər tərəfdən bu prosesi baltalayan təxribat xarakterli addımlar atmaqdadırlar. Diqqət edək: bir müddət əvvəl Bakı sülh prosesində əsas tələblərdən biri kimi keçmiş Minsk Qrupunun rəsmi olaraq birdəfəlik ləğvi şərtini irəli sürüb. Baş nazir Nikol Paşinyan bu tələbin reallığı əks etdirdiyini bəyan edərək Bakının mövqeyi ilə razılaşdığını açıqlayıb. İndi isə Parisdən gələn yeni direktivlər deyəsən Paşinyanı da həyəcanlandırıb və öz ampluasına qaytarıb. Baş nazir bir müddət əvvəl Minsk Qrupunun fəaliyyəti ilə bağlı dediklərini artıq müxtəlif addımlarla təkzib etməkdədir. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Fransa Prezidenti Emmanuel Makronun diplomatik müşaviri Bertran Buhvalter və Xarici İşlər Nazirliyinin Kontinental Avropa şöbəsinin müdiri, ATƏT-in Minsk qrupunun həmsədri Bris Rokfeyl ilə görüşərək bölgədəki vəziyyəti müzakirə edib. Göründüyü kimi, Fransa hər vəchlə 30 illik işğal dövründə heç bir işə yaramayan, daha doğrusu Parisin maraqlarına uyğun bölgədə gərginlik ocağını saxlamağa hesablanmış bədnam Minsk Qrupunun formal olsa da, mövcudluğunu itirməsini istəmir. Həm hərbi, həm də siyasi gedişlərlə sülh yolunun istiqamətini dəyişməyə çalışır.

### DƏYİŞMƏYƏN FAKTLAR VƏ REALLIQLAR

Lakin ortada dəyişməyən faktlar və reallıqlar mövcuddur. Azərbaycan dörd il öncə Ermənistanı həm döyüş meydanında, həm də siyasi müstəvidə ağır məğlubiyyətə uğradaraq separatizmə, işğala birdəfəlik son qoyub. Bölgədə hazırda cərəyan edən proseslər də məhz bu faktın yaratdığı reallıqlara uyğun şəkillənməlidir. Sülh yolunun istiqamətini də Azərbaycanın "dəmir yumruğ"u müəyyənləşdirir. Adını nə qədər Roma imperatoru olmuş Sezardan alsa da, Parisin Ermənistana hədiyyə etdiyi "Caesar" artilleriya sistemlərinin də "dəmir yumruq" qarşısında aciz qalacağı şübhəsizdir. Əgər Ermənistan rəhbərliyi sülh yolundan dönərsə, qələbəmizin simvoluna çevrilmiş Hərbi Qənimətlər Parkının yeni eksponatları "dəmir yumruq" altında əzilmiş "Caesar"lar olacaq.



Üç əsrin qəzeti Kaspi



# FRANSANI GÖZLƏYƏN TƏHLÜKƏ



Fransada siyasi gərginlik artır. Hər şey növbədənkənar parlament seçkilərində sağların qələbə qazanacağını göstərir. Bu qələbə isə tək Fransada deyil, bütövlükdə Avropada gərginliyə səbəb ola bilər.



AZƏR NURİYEV

Avropanın və bütövlükdə dünyanın diqqəti Fransada keçiriləcək seçkilərə yönəlib. İyunun 9-da Avropa Parlamentinə (AP) keçirilən seçkilərin nəticələri prezident Emmanuel Makronu sensasiyalı qərar qəbul etməyə məcbur edib. Beşinci Respublika tarixində ilk dəfə olaraq dövlət başçısı parlamenti daxili motivlərə görə deyil, xarici seçki kampaniyasının təsiri ilə buraxıb.

### “İNTİBAH” ÜÇÜN MƏYUSEDİCİ NƏTİCƏLƏR

Ölkə parlamentinin aşağı palatası olan 577 yerlik Milli Assambleyaya seçkilər üçün namizədlərin irəli sürülməsi başa çatıb. İyunun 17-də seçki kampaniyası rəsmən başlayıb və bu, Beşinci Respublika tarixinə ən qısa kampaniya kimi düşüb. Həlelik rəy sorğuları prezident Makronun “İntibah” partiyası üçün məyusedici nəticələri proqnozlaşdırır. Anketlərdə Marin Le Penin lideri olduğu, Cordan Bardellanın rəhbərlik etdiyi ifrat sağçı “Milli Birlik” Partiyası və solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası liderlik edir. Seçkilər iki turda - iyunun 30-da və iyulun 7-də keçiriləcək. Parlament mandatlarının böyük hissəsi üçün mübarizə aparan üç əsas siyasi qüvvə var: ifrat sağçı Cordan Bardellanın rəhbərlik etdiyi “Milli Birlik” Partiyası (son sorğuya görə, 33% səs toplaya bilər), solçu “Yeni Xalq Cəbhəsi” (28%), mərkəzçi Makronun “İntibah”ı (18%).

## SİYASİ MÜBARİZƏ ŞİDDƏTLƏNİR

Vəziyyət kritikdir. Emmanuel Makronun elan etdiyi seçkilər ərəfəsində sağçı qüvvələrin, xüsusilə “Milli Birliy”in uğurları fonunda siyasi mübarizə daha da şiddətlənir. Radikallara qarşı mübarizə aparmaq üçün Jan-Lyuk Melenşonun başçılıq etdiyi solçu qüvvələrdən ibarət koalisiya yaradılıb, bütün ölkədə etiraz aksiyası keçirilir. 250 mindən çox insan Fransanın müxtəlif şəhərlərində küçələrə axışaraq ifrat sağçılara qarşı çıxıblar. “France24”ün məlumatına görə, tək Parisdə keçirilən etiraz aksiyalarında 75 min insan iştirak edib. Onların arasında həm ifrat sağçı sol-liberal tənqidçilər, həm də “Milli Birlik” nümayəndələrinin və onun ideoloji lideri Marin Le Penin fikirlərini islamofob hesab edənlər olub.

### POLİS İĞTİŞAŞLARA HAZIRLAŞIR

Ölkənin keçmiş rəhbəri Nikola Sarkozi Makronun erkən seçkilərlə bağlı qərarının ölkəni xaosa sürükləyə biləcəyini deyib. Fransa polisi parlament seçkilərindən sonra hadisələrin inkişafı üçün bütün mümkün ssenariləri nəzərdən keçirir və sağçıların qələbə qazanacağı təqdirdə baş verə biləcək iğtişaşlara hazırlaşır. Bu barədə “Le Journal du Dimanche” (JDD) qəzeti məlumat yayıb. Nəşrin yazdığına görə, polis 7 iyul tarixini, seçkilərin ikinci turunun keçiriləcəyi günü xüsusilə təhlükəli hesab edir. Fransa polisinin həmkarlar ittifaqının nümayəndəsi Erik Henrinin nəşrə verdiyi məlumata görə, polis hazırda qalxan, qumbara, dəbilqə, su şırnaqları və qoruyucu vasitələr hazırlayır. Eyni zamanda, həmkarlar ittifaqının nümayəndəsi bildirib ki, polis əməkdaşlarının sayı məhduddur, ona görə də iğtişaşlar baş verərsə, asayişin qorunmasında “ordunun iştirakı məsələsi” yenidən gündəmə gətiriləcək.



### OLLAND MAKRONDAN QİSAS ALA BİLƏCƏK?

Seçki prosesinin ən maraqlı xəbəri keçmiş prezident Fransua Ollandın deputatlığa namizədliyinin irəli sürülməsi ilə bağlıdır. Görünür, vaxtilə Makrona uduzan Olland qisas almağın vaxtı çatdığı qənaətinə gəlib. Fransua Fransa siyasətində seçkilərdə qalib gəlmək üçün radikal müxalif qrupları birləşdirməyə qadir olan şəxs kimi tanınıb. Onun namizədliyini Fransanın solçu partiyalarının yaratdığı “Yeni Xalq Cəbhəsi” birliyi dəstəkləyib. Üstəlik, onun prezident postuna namizədliyini irəli sürmək niyyətində olduqlarını da bildiriblər.



## MARİN LE PENİN VARİSİ - BARDELLA

Bəlli olduğu kimi, Avropa Parlamentinə seçkilərin əsas qalibi ifrat sağçıların lideri, kino ulduzu siması olan 28 yaşlı gənclik kumiri Cordan Bardella olub. Onun sədri olduğu “Milli Birlik” Partiyası Makronun partiyasını sarsıdıcı məğlubiyyətə uğradıb, prezidenti parlamenti buraxmağa və növbədənkənar seçkilər elan etməyə məcbur edib. Artıq iyulda Bardellanın Fransanın baş naziri ola biləcəyi barədə söhbətlər dolaşır. “TikTok” ulduzu olan Bardellanın 1,6 milyon izləyicisi var. Mətbuat onu Le Penin “ideal kürəkəni” adlandırırdı. Bardella Marin Le Penin qardaşı qızı Nolven Olivye ilə romantik münasibətdə olub, lakin onlar Avropa Parlamentinə keçirilən seçkilərə az qalmış ayrılıblar. Tənqidçilər onun erudisiya çatışmazlığını, əsas məsələlərdə şəxsi fikrinin, qlobal iqtisadiyyat və siyasət sahəsində biliyinin olmamasını vurğulayırlar. Bardellanı “Le Penin düsturlarını əzbərdən təkrarlayan” biri kimi təsvir edirlər.

Beləliklə, Fransada siyasi gərginlik artır. Hər şey seçkilərdə sağların qələbə qazanacağını göstərir. Bu qələbə isə tək Fransada deyil, bütövlükdə Avropada gərginliyə səbəb ola bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# YAŞLARI KİÇİK, XƏRCLƏRİ BÖYÜK OLANLAR

**Övladını bölgələrdə təklif olunan düşərgələrə göndərmək istəyən valideynlər beş gecə, altı gün üçün 800-850 manat ödəməlidirlər. Bir ailədən iki uşaq qeydiyyatdan keçəcəyi təqdirdə, 100 manat endirim nəzərdə tutulub.**




**SEVİNC ABBASOVA**

Tədris ilinin başa çatmasına sayılı günlər qalır. İndi valideynlərin çoxu övladlarının qarşıdakı üç ayı səmərəli və əyləncəli keçirə bilmələri üçün variantlar axtarırlar. İki övladı olan Hicran Cəbrayılovanı da uşaqlarının yay tətilini necə təşkil edəcəyi düşündürür. Elə bu məqsədlə yay düşərgələri ilə maraqlanıb. Amma düşərgə təşkil edən şirkətlərin qiymətlərini öyrəndikdən sonra belə qənaətə gəlib ki, buna nail olmaq heç də asan məsələ deyil: "İki uşağın bir həftəlik yay düşərgəsində istirahəti üçün 1700 manat ödəniş etməliyik".

Qeyd edək ki, hazırda Azərbaycanda ödənişsiz yay düşərgələrinin sayı məktəblilərin istirahətini kütləvi şəkildə təmin edə biləcək səviyyədə deyil. Amma ölkədə ödənişli yay düşərgələri təşkil edən şirkətlər mövcuddur. Bəs, görəsən, yay düşərgələrinin şərtləri necədir? Hansı xidmətlər təklif olunur? Qiymətlər göstərilən xidmətə uyğun və qənaətlidirmi?

### QİYMƏT MƏKANA VƏ XİDMƏTƏ GÖRƏ DƏYİŞİR

Şirkətlər məktəblilərə həm ölkə daxilində, həm də ölkə xaricində düşərgələr təklif edirlər. Düşərgələr iyunun 17-dən sentyabrın 1-dək 1-10-cu sinif şagirdləri üçün nəzərdə tutulub. Valideynlər həm yatılı, həm də yatılı olmayan düşərgə formasını seçə bilərlər. Düşərgələrin çoxu Bakıətrafı ərazilərdə - Zağulba, Mərdəkan, Nardaran, Şüvəlan və Bilgəhdə yerləşir. Uşaqlarını bölgələrdə təklif olunan düşərgələrə göndərmək istəyən valideynlər Quba, Qusar, Lənkəran, İsmayıllı, Qəbələ rayonları arasında seçim edə bilərlər.

Düşərgələrin qiyməti yerləşdiyi məkana və göstərilən xidmətə görə dəyişir. Ölkə daxilində təklif olunan düşərgələrin qiyməti demək olar ki, bütün şirkətlərdə təxminən eynidir. Övladını bölgələrdə təklif olunan düşərgələrə göndərmək istəyən valideynlər beş gecə, altı gün üçün 800-850 manat ödəməlidirlər. Bir ailədən iki uşaq qeydiyyatdan keçəcəyi təqdirdə,100 manat endirim nəzərdə tutulub. Xidmətə gündə beş dəfə qidalanma, ingilis dili, şahmat üzrə master-klasslar, piknik, hovuz, film saatı, karaoke, dünya mətbəxi, əyləndirici və öyrədici oyunlar, müxtəlif məkanlara ekskursiyalar, məntiq oyunları, danışıq klubları və sair daxildir.

Nardaran, Zağulba və Bilgəhdə yerləşən düşərgələrdə beş günlük qiymət 400, 10 günlük qiymət isə 700 manatdan başlayır. Bu düşərgələr yatılı deyil, uşaqlar səhər 9:00-da gedib, axşam 18:00-da evə qayıdırlar. Qiymətə müxtəlif metro stansiyalarının yaxınlığından nəqliyyat xidməti, qidalanma, əyləncəli və öyrədici oyunlar, hovuz, robotexnika dərsləri, ingilis dili, ekskursiyalar daxildir.



Kamran Əsədov

## İNGİLTƏRƏ VƏ ABŞ-DƏ YAY DÜŞƏRGƏLƏRİ

Yerli şirkətlər övladlarının yay istirahətini Azərbaycanda deyil, xaricdə planlayan valideynlər üçün də təkliflər hazırlayıblar. Tələbata uyğun olaraq daha çox təklif ABŞ-da və İngiltərədə yerləşən yay düşərgərləri ilə bağlıdır. Məsələn,14 günlük London yay düşərgəsinə 8-17 yaşlı uşaqlarını göndərmək istəyən valideynlər 5100 manat ödəməlidirlər. Qiymətə bilet daxil deyil. Bu məbləğə viza dəstəyi, sığorta, transfer xidməti, tur rəhbəri, gündə üç dəfə qidalanma, üç dəfə ingilis dili dərsləri, İngiltərənin gəzməli-görməli yerlərinə ekskursiyalar, sertifikat və sair təklif olunur.

ABŞ-da yerləşən yay düşərgələrinin 14 günlük qiyməti 4300 dollardan başlayır. Qiymətə viza dəstəyi və gediş-dönüş bileti daxil deyil. Bu məbləğə sığorta, transfer xidməti, tur rəhbəri, gündə üç dəfə qidalanma, ABŞ-da gəzməli-görməli yerlərinə ekskursiyalar, aparıcı İT şirkətlərinin ofislərinə turlar və sair təklif olunur.

### QİYMƏTLƏR ÇOX ŞİŞİRDİLİB?

Təhsil eksperti Kamran Əsədov hesab edir ki, hazırda uşaqlar üçün təşkil edilən yay düşərgələrinin səmərəsi yoxdur: "Çünki yay düşərgələrində əslində maarifləndirici tədbirlər, kino nümayişləri, görkəmli şəxslərlə görüşlərin keçirilməsi, ölkə təbiətinin öyrədilməsi, ekoloji biliklərin aşılanması yox səviyyəsindədir. Sadəcə, uşaqları toplayıb, gəzdirir, şəkil çəkdirir və hesabat verərək işlərini bitmiş hesab edirlər. İndiki yay düşərgələri plan yerinə yetirmə və görüntü xarakteri daşıyır. Sovetlər dönəmində yay düşərgələri tamam fərqli idi".

Ekspertin sözlərinə görə, düşərgələrdə adambaşına düşən maliyyələşmə kifayət qədər yüksək göstərilib: "Hazırda həmkarlar ittifaqlarının nəzdində dörd uşaq düşərgəsi fəaliyyət göstərir. Həmin düşərgələrdə üç ay ərzində uşaqların ümumi qəbul etmə imkanı 3400 nəfərdir. Uşaqlar düşərgələrdə 21 gün müddətində qala bilərlər. Nabranda, Şüvəlanda "Olimp", "Şahin", "Aypara" uşaq düşərgələri ilə yanaşı, Milli Elmlər Akademiyasının da uşaq-sağlamlıq düşərgələri var. Bütün valideynlər işlədikləri müddətdə işlədikləri müəssisələrin həmkarlar ittifaqına bir faiz pul ödəyirlər. Bu da o deməkdir ki, bu valideynlərin uşaqları uşaq düşərgələrinə böyük endirimlə getməlidirlər. Qanunvericiliyə görə, 180 manatlıq göndərişə valideyn 27 manat ödəməlidir. Məsələn, adambaşına 300 manat düşərgə qiyməti real qiymət deyil. Adambaşına düşərgə qiyməti 21 gün üçün maksimum 50-70 manatdan artıq ola bilməz. Bütün bunların hamısı Elm və Təhsil Nazirliyi, rayon təhsil şöbələri, şəhər təhsil şöbələri tərəfindən həyata keçirilməlidir. Uşaqlar üçün yüksək səviyyəli yay düşərgələri yaradılmalıdır".



Anar İsgəndərov

### DÜŞƏRGƏLƏRİN BƏRPASI GÜNDƏMDƏDİR

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, Anar İsgəndərov isə əmindir ki, yaxın gələcəkdə məktəblilərin yay istirahətini kütləvi şəkildə təmin etmək mümkün olacaq: "Sovet dönəmindən fərqli olaraq, bu gün yay düşərgələrinin sayı azdır. Amma aidiyyəti qurumlar bu istiqamətdə iş aparırlar. Bu düşərgələrin sayı kifayət qədər olmasa da, hər il onların sayı artırılır. Məsələn, Lənkəranda, Qubada, Masallıda çox gözəl məkanlar var. Bu məsələdə valideynlər nə qədər narahatdırlarsa, inanın ki, aidiyyəti qurumlar da o qədər narahatdırlar. Yaxın gələcəkdə ayrı-ayrı yerlərdə məktəbli düşərgələrinin yenidən bərpası gündəmdədir".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# "UŞAĞA "sabahın xeyir", "salam" demək çətindirmi?"



Hüzurə Ağayeva: "Bir dəfə ABŞ-də rəfiqəmlə söhbət edirdik, bir nəfər də bizə qulaq asırmış. O bizə yaxınlaşdı və ingiliscə soruşdu ki, siz hansı dildə danışırsınız? Dedik, Azərbaycan dilində. Dedi ki, "mən sizə qulaq asmaq üçün iki avtobus buraxmışam. Necə gözəl, musiqili diliniz var".



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

O kimliyimizi qorumaq, dilimizi, mədəniyyətimizi təbliğ etmək üçün xaricdə yaşayan azərbaycanlıların övladlarına ana dilimizi öyrədir. Nəinki həmvətənlərimiz, bir çox əcnəbi belə, onun sayəsində Azərbaycan dilində danışır. Deyir ki, bir saat ərzində dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıları məhz ana dili vasitəsilə bir yerə toplayır. Hesab edir ki, bir müəllim kimi bu fəaliyyət onun vətən qarşısında ən böyük borcudur.

Müsahibimiz Azərbaycan Dillər Universiteti Təhsil 1 fakültəsinin nəzdində xarici dillərin tədrisi metodikası kafedrasının baş müəllimi, Azərbaycana gələn xarici vətəndaşlara və Azərbaycandan kənarda yaşayan azərbaycanlılara ana dilimizi öyrədən Hüzurə Ağayevadır.

## "ÜÇÜNCÜ HƏFTƏDƏN SONRA AZƏRBAYCAN DİLİNDƏ DANIŞIRDI"

**Hüzurə xanım, "Ana dili - Azərbaycan məktəbi" layihəsinin məqsədi nədir?**

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə həyata keçirilən layihənin məqsədi xaricdə doğulan azərbaycanlı uşaqlara ana dilini, milli kimliyini öyrətməkdir. İştirakçılar ana dilində yazmağı, oxumağı, danışmağı öyrənməklə yanaşı, ölkəmizin tarixi, ədəbiyyatı, coğrafiyası və mədəniyyəti haqqında da məlumat əldə edirlər. Uşaqlar 5-16 yaş aralığındadırlar və hamısı azərbaycanlılardır. Onlar dünyanın müxtəlif ölkələrində - ABŞ, Kanada, Rusiya, Avstraliya, Peru, Xorvatiya, İtaliya, Fransa, Bolqarıstan, Polşa, Danimarkada yaşayırlar. Hər bir uşaq onlayn qeydiyyatdan keçir. Kurslar isə ictimai əsaslarla, tam ödənişsiz həyata keçirilir.

## "UŞAQLAR AZƏRBAYCANDAKI QOHUMLARI İLƏ ÜNSİYYƏT QURA BİLMİRLƏR"

**Xaricdəki uşaqlara dili tədris edərkən valideynlərin onlardan çox həyəcanlı olduğunu vurğulayırsınız. Valideynlər əsasən nədən narahatdırlar?**

İlk vaxtlar qısa müddət ərzində 500-dən çox insan qeydiyyatdan keçdi. Biz bu qədər tələbat olacağını gözləmirdik. Həmin valideynlər Azərbaycan dilini bilirlər, çünki burada yaşayıblar. Lakin övladları ətrafları xaricilər olduğu üçün dilimizi öyrənə bilmirlər. O uşaqlar yavaş-yavaş yaşadığı ölkənin sakinlərinə oxşayır, avropasayağı olurlar. Bu, valideynləri narahat edir. İkinci ən böyük problem isə xaricdə yaşayan azərbaycanlılar ölkəyə gəldikdə qohumlar, nənə-baba, həmyaşıdları ilə ünsiyyət qura bilmirlər. Bu da uşağa psixoloji baxımdan təsir edir.

**Sizcə, azərbaycanlı uşağın dilimizi bilməməsi kimin günahıdır?**

Mənə görə valideyn günahkardır. Dil dinlənmə vasitəsilə öyrənilir. Ailə Azərbaycan dilində danışmadığı üçün uşaq eşitmir və bilmir. Uşağa "sabahın xeyir", "salam" demək çətindirmi? Elə ailə var ki, uşaqlarına dili sıfırdan öyrədirik. Heç bir söz bilmirlər. Bu, çox narahatedicidir. Bizim dilimiz o qədər gözəldir ki, unutmaq, unutdurmaq olmaz. Bir dəfə ABŞ-də rəfiqəmlə söhbət edirdik, bir nəfər də bizə qulaq asırmış. O, bizə yaxınlaşdı və ingiliscə soruşdu ki, siz hansı dildə danışırsınız? Dedik, Azərbaycan dilində. Dedi ki, mən sizə qulaq asmaq üçün iki avtobus buraxmışam. Necə gözəl, musiqili diliniz var. O qadın italyan idi. Əgər əcnəbi bizim dilimiz haqqında bu cür yüksək fikirdədirsə, biz niyə danışmayaq?



## "UŞAQLAR XARİCDƏ YAŞASALAR DA.."

**Dərs prosesindən sonra övladı Azərbaycan dilində danışan valideyn toy-bayram edir deyirsiniz. Bəs uşaqların dilimizə münasibəti necədir?**

Uşaqlar xaricdə yaşasalar da, bizə çox bağlıdırlar. Dərslərə valideynlərindən çox maraq göstərir, hətta tətillərində belə dərsə qoşulurlar. Hər biri fərqli ölkədə yaşayır, amma bir platformada dostluq edə bilirlər. Bir-birinin qayğısına qalır, bir-birini öyrətməyə çalışırlar. Çox aktiv və maraqlı uşaqlardırlar. Harada yaşamalarından asılı olmayaraq tam azərbaycanlıdırlar.

**Maraqlıdır, Azərbaycan dilini öyrənən əcnəbi tələbələr sizi necə təəccübləndirirlər?**

Luk adlı amerikalı tələbəm var idi. Təsəvvür edin, Azərbaycan dilində bir hərf belə bilmirdi, amma hər gün 20 söz öyrənib gəlirdi. Milli yeməklərimiz, musiqimizlə çox maraqlanırdı. Bir dəfə "ağsaqqal" sözünü izah edirdim. Luk diqqətlə qulaq asdı və dedi ki, "mən Lənkərana gedəndə anlamırdım ki, ağ saqqalı olmayana niyə ağsaqqal deyirsiniz". Elə məqamlara toxunurdular, özümə də maraqlı gəlirdi. Luk ölkəmizi çox sevirdi.

## ABŞ-Lİ LUKUN AZƏRBAYCAN SEVGİSİ



**Luk Azərbaycanda daha çox nəyi sevirdi?**

Onlar burada olanda həftəsonu istədikləri rayona gedə bilirdilər. Bir dəfə seçəcəkləri rayonu bizimlə məsləhətləşdilər və ləvəngi yemək üçün Astaraya yola düşdülər. Bu səfərdən sonra ingilis dilində status paylaşdı. Yazmışdı ki, "biz dörd nəfər Astaraya getdik, yolda bir qadınla rastlaşdıq və milli yeməkləri olan restoran maraqlandıq. Qadına konkret ləvəngi istədiyimizi bildirdik. Bizi öz evinə apardı, ləvəngi bişirdi, gözəl süfrə açdı. Sağollaşanda nə qədər pul verəcəyimizi soruşduq, qadın bizə "biz azərbaycanlılar qonaqdan heç vaxt pul almırıq, qapılarımız bütün qonaqların üzünə açıqdır", dedi". Luk qeyd etmişdi ki, "mən sizə demirəm Azərbaycanın gözəl yerləri var, ona görə səyahət edin. Gözəl yerlər hər yerdə var. Amma dünyanın heç bir ölkəsində rast gələ bilməyəcəyiniz qonaqpərvərlik, doğmalıq yalnız Azərbaycandadır". O status bizi də qürurlandırmışdı.

**Azərbaycan dilini öyrətmək və öyrətdiklərinizin öyrəndiyini görmək necə hissdir?**

Elə anlar var ki, sözlə ifadə etmək olmur. Bunu sadəcə yaşamaq lazımdır. Bir azərbaycanlı kimi fəxr edirəm və inanıram ki, öyrətdiyimiz uşaqlar sabah dillərini möhkəmlədəcək və öz uşaqları ilə bu dildə danışacaqlar ki, onların yaşadığı çətinliyi uşaqları yaşamasın. Bunu bacaracağamsa, nə xoşbəxt mənə. Bir saat ərzində dünyanın müxtəlif ölkələrini evimizə gətirirəm. Bizi nə birləşdirir? Dilimiz. Əgər bir millətin dili yoxdursa, gələcəyi də yoxdur.

# KÜÇƏLƏRDƏ BÖYÜYƏN FİDANLAR



**Küçə uşaqları ilə bağlı problem cəmiyyətdə ciddi narahatlıq yaradır. Reallıqda onların sayı ilə bağlı etibarlı rəqəmlər olmasa da, gözümüzün qarşısında canlanan mənzərə həyəcan təbili çalmağın vaxtı olduğunu deyir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Küçə uşaqları” hazırda təcili həllini tələb edən ən aktual sosial problemlərdəndir. Valideyn nəzarətindən məhrum, küçələrdə dolanan, gecəqondulara sığınan, yemək və əyləncə axtarışında olan nəzarətsiz uşaqlar cəmiyyətdə ciddi narahatlıq yaradır.

Reallıqda isə küçələrdə olan uşaqların sayı ilə bağlı etibarlı rəqəm yoxdur. Problemin ciddiliyini nəzərə alan Ailə Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi və “Regional İnkişaf” İctimai Birliyi bu istiqamətdə layihənin icrasına başlayıb. Uşaq hüquqları ilə bağlı qanun layihəsi də artıq aidiyyəti qurumların rəy mərhələsindədir. Layihədə uşaqlarla bağlı inzibati və məhkəmə icrası ilə əlaqədar yeni tələblər yer alıb. “Bəzən urbanizasiyanın nəticəsində aşkar olunmayan, amma dəstəyə ehtiyacı olan uşaqlarla bağlı məlumat alırıq. Onların çoxu qeydiyyatsız evlərdə, gecəqondularda yaşayırlar. Ona görə rayon icra hakimiyyətlərinin yerlərdəki nümayəndələrinin daha fəal olmasını istəyirik”, - deyə Komitədən bildirilir.

Küçə uşaqlarının sayı və vəziyyəti ilə bağlı mənzərənin reallığı maraq doğurur. Bəs problemin birdəfəlik çözümü - onların bütünlüklə ailələrinə qaytarılması və ya dövlət müəssisələrinə cəlb edilməsi mümkündürmü?

### KÜÇƏ UŞAQLARININ SAYI ARTIR

“Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova küçə uşaqları ilə bağlı mənzərənin xoş olmadığını bildirir: “Uşaqların hansı ərazidə dilənməsi və ya əməklərinin istismar olunması ilə bağlı zənglər və müraciətlər alırıq. Biz onları Uşaqlar üçün Reabilitasiya Mərkəzinə yönəldiririk. Mərkəzdə sosial işçilər tərəfindən həmin uşaqların həyatının öyrənilməsi, nədən küçə həyatına sövq edilməsi, ailələrinin tapılması və yaşayış şəraitinin öyrənilməsi həyata keçirilir. Bu prosesdə küçədə olan uşaqların sayının artdığını görürük. Müşahidələrimiz də bunu təsdiqləyir: uşaqlar gül satır, maşınları təmizləyir, dilənirlər. Yaxınlaşıb bunun səbəbini öyrənməyə çalışırıq”.

### MƏQSƏD HƏR BİR UŞAĞI AİLƏSİNƏ QAYTARMAQ OLMALIDIR

K.Aşumova küçə uşaqları arasında təhsildən yayınmaların çox olduğunu bildirir: “İcbari təhsil doqquzuncu sinfə qədərdir. Amma biz görürük ki, sosial-maddi rifahı, sənədlərin olmamasını və digər səbəbləri əsas tutaraq uşaqları təhsildən yayındırırlar”. Təşkilat rəhbəri uşaqların küçəyə qaçmasını müxtəlif səbəblərlə - ailəyə kömək, evdə zorakılıqla üzləşmə, valideyn məsuliyyətsizliyi, qayğının olmaması və s. əlaqələndirir: “Onların arasında valideynini itirən, rəsmi qəyyumu olmayan uşaqlar azdır. Onları da aşkarlayıb müxtəlif dövlət müəssisələrinə yerləşdiririrlər”. QHT rəhbəri qaraçı uşaqları ilə bağlı məsələnin də vacib olduğunu bildirir: “Küçə uşaqları sırasında daha çox bu kateqoriya yer tutur. Onlara da həmin müdafiə sistemi tətbiq olunmalıdır”. Təşkilat rəhbəri bildirir ki, küçə uşaqları arasında hər yaşda olanlar var: “Bir az yaşı olan uşaqlar aşkar olunmamaq üçün özlərini gizli saxlaya bilirlər. Kiçik yaşlılar isə fəaliyyətlərini gizlədə bilmirlər”. K.Aşumovanın sözlərinə görə, bu uşaqları küçədən yığıb uşaq evlərində yerləşdirmək problemin həlli yolu və son məqsəd deyil: “Məqsəd hər bir uşağı ailəsinə qaytarıb davamlı reabilitasiya və sosial xidmətlərlə əhatə etməkdir. Əsas məqsəd uşaqların doğma ata-anası və ya qəyyumu ilə yaşamasına dəstək verib, ailələrində olan problemlərin həllinə dəstək göstərməkdir. Amma elə uşaqlar da var ki, artıq onların ailələrinə qaytarılması mümkün deyil. Belə halda onlar yaşa və qanunvericiliyə uyğun müəssisələrdə yerləşdirilməlidirlər”.



Kəmalə Aşumova

## UŞAQLARIN DİLƏNÇİLİYƏ CƏLBİ MƏSULİYYƏT YARADIR

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəis müavini, polis mayoru İmran Əliyev sorğumuza cavab olaraq bildirdi ki, yetkinlik yaşına çatmayan uşaqların avaralığa və dilənçiliyə cəlbi məsuliyyət yaradır. O cümlədən, uşaqlarını təhsildən yayındıran valideynlərin barəsində də məsuliyyət tədbiri görülür: “Çətin tərbiyə olunan uşaqlarla bağlı yalnız qapalı tipli müəssisə mövcuddur. Ağır və xüsusilə ağır cinayət törətmiş uşaqlar o müəssisəyə yerləşdirilir. Lakin bu tip uşaqlar üçün açıq tipli təlim-tərbiyə müəssisəsi hələ mövcud deyil. Bu ilin oktyabr ayında Elm və Təhsil Nazirliyi tərəfindən belə müəssisənin istifadəyə verilməsi nəzərdə tutulur”.

## ÜNSİYYƏTSİZLİK VƏ AİLƏ BASQISI

Hüquq pozuntuları törətmiş, çətin tərbiyə olunan uşaqlarla iş zamanı psixoloqların prosesə cəlb edilməsinin vacibliyi də vurğulanır. Psixoterapevt Fatimə Bayramova bildirir ki, belə uşaqlarla iş prinsipi onların fərdi xüsusiyyətlərini öyrənmə əsasında aparılır: “Hər bir uşaq fərqlidir. Onların hansı travmalar aldığını öyrənmək lazımdır. Bu məsələdə yaşa uyğunluq prinsipi də önəmlidir. Çünki hər bir uşaq aldığı travmanı başqa cür əks etdirir”. Psixoloq hesab edir ki, uşaq küçəyə evdəki ünsiyyətsizlikdən, ailə basqısından qaçır: “Bu, əsasən 14-15 yaşında baş verir. Valideynin cahilliyi ondan ibarət olur ki, uşaq yeniyetməlik dövrünün psixoloji xüsusiyyətlərini bilmir. Bu, uşağı evdən uzaqlaşdırır. Uşaq valideynlə toqquşduqda valideyn yaş amilini nəzərə almalı, uşağa zidd gəlməməlidir. Uşaqların təhsildən yayınmaması üçünsə ilk növbədə travmalarını aradan qaldırmaq, onlarla ünsiyyət qurub sosial fəaliyyətlərə cəlb eləmək lazımdır”.



Fatimə Bayramova

Üç əsrin qəzeti Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1405
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU İLİN BİRİNCİ RÜBÜNDƏ AZƏRBAYCANA PALMA YAĞI İDXALI NİYƏ ARTIB?

# ÖLÜMÜ YAXINLAŞDIRAN İDXAL

Ölkəmizə palma yağının idxalı artır. Rəsmi məlumatlarda idxal edilən bu yağdan əsasən sabun istehsalında istifadə edildiyi bildirilsə də, başqa ehtimallar da var. Ekspertlər palma yağından qida sənayesində istifadə edilməsindən narahatdırlar.






ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin birinci rübündə Azərbaycana xaricdən 13,6 milyon ABŞ dolları dəyərində 11 min 880 ton palma yağı gətirilib. Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, bu, ötən ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 89 faiz, kəmiyyət olaraq - iki dəfə çoxdur. Hesabat dövründə Azərbaycan İndoneziyadan 12,4 milyon ABŞ dolları dəyərində 10 min 914 ton (bir il əvvəl tədarük olmayıb), Malayziyadan 1,1 milyon ABŞ dolları dəyərində 899 ton (bir il əvvəlki göstəricidən 84,6 faiz az), Rusiyadan 59 min ABŞ dolları dəyərində 42,6 ton və Türkiyədən 31,9 min ABŞ dolları dəyərində 23,3 ton (bir il əvvəl tədarük olmayıb) məhsul alıb. Mütəxəssislərdən də davamlı eşidirik ki, bu məhsul insan orqanizmi üçün çox təhlükəlidir. Bəs o zaman niyə hər il idxalı daha da artır?

### BİR BİTKİDƏN ALINAN İKİ FƏRQLİ MƏHSUL

İqtisadçı Akif Nəsirlinin sözlərinə görə, palma yağı dedikdə eyni ad altında iki fərqli struktura malik yağ nəzərdə tutulur: "Birincisi, palma meyvəsinin lətindən alınır, ikincisi isə palma meyvəsinin toxumlarından hazırlanır. Palma meyvəsinin lətindən alınan yüksək keyfiyyətli bitki yağıdır. İnsan orqanizmi üçün müstəsna əhəmiyyətə malikdir. Amma palma toxumlarından alınan yağ insan orqanizmi üçün zərərlidir, qida sənayesi üçün yararsızdır".

A.Nəsirli bu zərərli yağın ölkəmizə gətirilməsi səbəblərini də açıqladı: "Rəqəmlərdə ölkəmizə gətirilən məhsulların palma meyvəsinin toxumundan, yoxsa lətindən hazırlandığı göstərilmir. Ümumiyyətlə, belə bir təsnifat aparılmır. Palma meyvəsinin toxumundan alınan yağ dünyada ən ucuz hesab olunur. Bahalı yağlar ölkəmizə külçə şəklində gətirilir və burada qablaşdırılır. Həmin yağlara ən az 20 faiz palma yağı qatılır. Beləliklə, bahalı və keyfiyyətli yağ kimi insanlara təqdim olunur. İşbazlar 10 dəfə daha çox qazanc əldə etmiş olurlar".

## SƏNAYE ADI İLƏ GƏTİRİLİB, MƏTBƏXİMİZƏ DAXİL OLUR

İqtisadçı qeyd etdi ki, işbazlar külli miqdarda qazanc əldə etdiyi üçün müxtəlif adlarla bu məhsulu ölkəmizə gətirməyi bacarırlar: "İdxal edərkən də təyinatını dəyişirlər. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə bəyan edirlər ki, palma yağını sabun sənayesində istifadə etmək üçün gətirirlər, lakin ərzaq məhsullarının tərkibinə qatılır. Əldə edilən qazanc çox olduğu üçün də palma yağının idxalı ildən-ilə artır. Araşdırmaq lazımdır ki, bu yağ sənayedə hansı məqsədlərlə istifadə olunur ki, bu qədər idxal edilir. Doğrudan da ondan sabun, sürtgü materialları hazırlanır, texniki məsələlər üçün istifadə olunur? Bununla bağlı müşahidələr aparılmalıdır".

### QİDALARIN ÖMRÜNÜ UZADIR

Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova bildirdi ki, bu yağ ucuz olması ilə bərabər, məhsulların ömrünü də uzatdığı üçün idxalı artır: "Qida çeşidliliyi artdıqca qidaların daha ucuz xammaldan əldə olunması və rəf ömrünün uzadılmasına hesablanmış istehsalın artımı meydana gəlir. Palma yağının istifadəsi də bu səbəbdəndir. Palma yağından istifadə olunduqda həmin məhsulların xarab olma vaxtı gecikir, rəf ömrü daha da uzun olur. Həmçinin daha ucuz başa gəlir. Palma yağı sənaye üsulu ilə hazırlandıqda qidada istifadəyə yararlı deyil".

### BİTKİ YAĞI YEDİYİMİZİ ZƏNN EDİB ZƏHƏRLƏNİRİK

M.Hüseynovanın fikrincə, palma yağından bir çox məhsullarda istifadə edilsə də, tərkibləri gizlədilir: "Xüsusən də paketlənmiş qidaların əksəriyyətində, eyni zamanda restoran və iaşə obyektlərində qızartma yeməklərdə, bir çox şirniyyatlarda palma yağından istifadə olunur. Lakin bu, əksər hallarda göstərilmir. Bəzən bitki yağı adı altında yazılır, hətta bir neçə bitkinin adı qeyd edilir və konkret olaraq hansı mənşəli yağdan istifadə olunduğu bilinmir. Yaxud müxtəlif kodlarla qeyd olunur. Belə olan halda istehlakçılar da aldıqları məhsullar haqqında tam məlumatlı olmurlar. Bəzi ölkələrdə məhsulların tərkibində palma yağından istifadəyə icazə verilsə də, əksəriyyətində bu, qadağandır. Xüsusən də uşaq qidalarında bu qadağalar daha çox tətbiq edilir. Amma palma yağı təbii haldadırsa, tərkibində A və E vitaminləri, doymamış yağ turşuları varsa, ondan az miqdarda, gec-gec istifadə olunsa, o qədər də zərərli deyil".



Məhsəti Hüseynova

## İNKİŞAFDA GERİLƏMƏ, ERKƏN YAŞDA XƏSTƏLİKLƏR...



Akif Nəsirli

Mütəxəssisin sözlərinə görə, yeniyetmə və gəncləri bu tip məhsullardan maksimum dərəcədə uzaq tutmalıyıq: "Araşdırmaların nəticələrində də görünür ki, gündəlik, davamlı olaraq palma yağından istifadə edən insanların sağlamlığında müəyyən təhlükələr yarana bilir. Xüsusilə də 20 yaşa qədər olan insan orqanizmində hər gün inkişaf getdiyinə görə, keyfiyyətsiz yağdan istifadə məsləhət deyil. İstifadə edildikdə bu, uşaq və yeniyetmələri inkişafdan geri salır, müəyyən xəstəliklərə erkən yaşda tutulmağa səbəb olur. Sağlamlığına diqqət edən insanlar bu tip məhsullardan istifadə etməməlidirlər. Palma yağından həddən artıq istifadə insan orqanizmində pis xolesterin kimi tanınan LDL səviyyəsini yüksəldir. Həmçinin yaxşı xolesterin kimi tanıdığımız HDL-i aşağı salır ki, bu da bir çox xəstəliklərin yaranmasına gətirib çıxarır. İmmun sistemi güclü olan insanlar bu tip qidalardan gec-gec istifadə etsələr, zərərini o qədər də hiss etməyə bilərlər. Amma daima paketlənmiş qidalar, mənşəyi kimyəvi qatqı maddələri, keyfiyyətsiz yağlar olan məhsullardan istifadə edən insanlarda inkişafdan geri qalma, xəstəliklərə tutulma özünü açıq aydın göstərir".

# TURİZM SEKTORUNUN SAĞALMAYAN YARASI



**Yol kənarındakı kafe və restoranların əsas vəzifəsi turistlərə diqqət yetirmək olmalıdır. Xidmət dedikdə isə təkcə yemək və ya çay təqdim etmək deyil, ünsiyyət bacarığı, etiket qaydaları nəzərdə tutulur. Yaxşı interyer və ləzzətli yeməklər təcrübəsiz işçilərin qıcıqlandırıcı fəaliyyətini kompensasiya edə bilmər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Əməkdaşımız xaricdən gələn qonaqlarla Quba-Qusar bölgəsindəki iaşə obyektlərinin birinə yaxınlaşıb. Menyu üzərindən yemək sifariş verib və gözləyiblər. 40-50 dəqiqədən sonra ofisiant qayıdaraq yüksək tonla “bu yemək bizdə yoxdur, hazırlaya da bilmərik”, - deyib. Azərbaycan Turizm Bələdçilər Assosiasiyasının (ATBA) layihə meneceri Fərhad Əkbərlinin nəql etdiyi hadisə respublikamızın bütün turizm bölgələrindəki iaşə obyektləri üçün xarakterikdir. Ötən həftə rayonlardan birinə səfərimiz zamanı biz də bunu müşahidə etdik.

## “BURADA YEMƏK VERİLMİR...”



Kənd turizmi əyləncəsi şəhər sakininin adi tətilinə bənzəmir. Bəzən insanlar mobil şəbəkənin olmadığı, yaşıllığın bol olduğu, sakitliyin hökm sürdüyü yerdə istirahət etmək istəyirlər. Yayın gəlişi belə səfərlər üçün ən yaxşı fürsətdir. Həftə sonları paytaxtdan tətil və ya məzuniyyət günləri regionlara yol alan maşın karvanları da buna misaldır. Yol boyu hərəkət edən sürücülərə və ya qonaqlara isə arabir dayanmaq, istirahət etmək, bir tikə çörək yemək və ya çay-su içmək lazım gəlir. Təbii ki, yol kənarındakı hər hansı kafe və restoranın əsas vəzifəsi ilk növbədə potensial auditoriyasına – gələn turistlərə diqqət yetirmək olmalıdır. Xidmət dedikdə isə təkcə yemək və ya çay təqdim etməyi deyil, ünsiyyət bacarığının, etiket qaydalarının, köhnə ənənələrin və ən müasir yeniliklərin, eləcə də incə psixoloji texnikanın birləşməsi nəzərdə tutulur. Bəzən yaxşı interyer və ləzzətli yeməklər bu cür işçilərin zəif və naşı fəaliyyətini kompensasiya edə bilmir.

Ekspertlərin ümumi fikrinə görə, inkişaf üçün digər tələblərə - məsələn, xidmətin rahatlığı, sürücülərin ehtiyaclarını nəzərə almaq, xoş mühit, dadlı yemək, sərfəli qiymətin olması, ofisiantların xidmət səviyyəsinin yüksəldilməsi, sanitar qovşağının təmizliyi kimi məqamlara diqqət yetirmək lazım gəlir.

Təəssüf ki, bizdə bu istiqamətdə real vəziyyət o qədər də ürəkaçan deyil. Bəzi istisnalarla yol kənarındakı iaşə obyektləri “özfəaliyyət” təsiri bağışlayır.

“Yolkənarı iaşə obyektlərində xidmət səviyyəsinin aşağı olmasının səbəbi nədir?”, - deyə soruşduğumuz turizmçilərin fikirləri də mənzərəni daha aydın təsəvvür etməyə imkan yaradır.

## PUL XƏRCLƏMƏK İSTƏMİRLƏR



ATBA-nın layihə meneceri Fərhad Əkbərli də təsdiqləyir ki, bu kimi problemlərə tez-tez rast gəlinir: “Xidmət səviyyəsi ilə bağlı şikayətlər çoxdur.

Turistlərlə birgə bölgələrə səfər edən bələdçilərimiz vəziyyətlə bağlı bizi məlumatlandırırlar. Problemin başlıca səbəbi restoran sahiblərinin işə peşəkarları deyil, tanışlarını cəlb etmələridir. Kənardan hansısa bir təlimçi də cəlb etmirlər ki, onlara təlim keçsin. Bunun üçün pul xərcləmək istəmirlər. Bu cür obyektlərdə çalışan ofisiantların əksəriyyətinin elementar xarici dil bilgiləri də yoxdur. Hətta bu problemlərə bizim beşulduzlu hotellərdə də rast gəlinir. Bələdçilər ən çox ofisiantların normal davranışının, ünsiyyətinin olmamasından şikayətlənirlər. Bəzən milli mətbəxə məxsus yeməklərin təqdim olunmaması ilə rastlaşırsan. Məsələn, bir həftə əvvəl Macarıstandan gələn qonaq üçün bələdçi “səbzi plov” bişirilməsini istəyib. “Noxudlu plov var”, - deyə cavab verilib. Qonaq da “o plovu Özbəkistanda yemişəm”, - deyib”.

F.Əkbərlinin sözlərinə görə, problemlərlə bağlı mərkəzi strukturlara şikayətlərini bildirirlər: “Peşə Təhsili Agentliyi ilə görüşlərimizdə deyirik ki, tur agenti, kulinariyaçı, ofisiant yetişdirin”.

## “YOLKƏNARI İAŞƏ OBYEKTLƏRİNİN SƏVİYYƏSİ YÜKSƏLDİLMƏLİDİR”

Kənd Yaşıl Turizminin İnkişafına Dəstək İctimai Birliyinin sədri Qəhrəman Yusupov bildirir ki, turist qrupları ilə səfərə çıxdıqda hansı məkanda dayanıb yemək yeyilməsi əvvəlcədən planlaşdırılır: “Həmin obyektin rəhbərliyi bizim şirkətləri tanıyır. Obyektə çatmamışdan yarım saat qabaq zəng edib turda iştirak edənlərin sayını deyir və xahiş edirik ki, münasib yemək olsun. Menyu əvvəldən danışılır və qiymətlər təqribi razılaşdırılır”. QHT rəhbərinin sözlərinə görə, yol kənarındakı iaşə obyektləri özəl olduğu üçün onların işinə müdaxilə edə bilmirlər: “Təbii ki, yolkənarı iaşə obyektlərinin səviyyəsi yüksəldilməlidir. Qida Təhlükəsizliyi Agentliyi və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi onların işinə nəzarət etməlidir”.

Yol kənarında yerləşən iaşə obyektlərində sanitar qovşaqlar problemi də aktualdır. ATBA-nın üzvü, bələdçi Kamil Ağayev “bu, bizim yaralı yerimizdir”, - deyir: “Yola çıxarkən dayanacağımız yol kənarındakı iaşə obyektinin sanitar qovşağının vəziyyəti haqqında düşünürük ki, turist-lərin yanında biabır olmayaq”. Bələdçi hesab edir ki, ölkə üzrə iaşə obyektlərinin sanitar qovşaqlarının vahid standartı hazırlanmalıdır: “Obyekt magistral yolun üstündədirsə, orada daim xadimə olmalıdır. Xidmət pullu olmalıdır ki, sanitar qovşaqlar təmiz olsun”.

## “HAMISINI BİRDƏN DÜZƏLTMƏK MÜMKÜN DEYİL”

ATBA-nın üzvü Asya Şirəliyeva deyir ki, turizm şirkətlərinin təmsilçiləri qruplar gəlməmiş bölgələrə reydə çıxırlar: “Restoranları yoxlayır və gələn qonaqları yalnız yoxladığımız restoranlara aparırıq. Qrupları təsadüfi seçdiyimiz restoranlara aparsaq, xoşagəlməyən vəziyyətlə qarşılaşarıq”. Turizmçinin fikrincə, bu problemi birdən-birə həll etmək mümkün deyil: “Yol kənarlarında restoran və kafelər çoxdur. Servis məsələsi pisdir. Bəzən gözləyirsən, gəlib yaxınlaşmırlar. Bəzən də yaxınlaşırlar, amma xidmət müddəti uzun olur. Turist qrupları proqram əsasında işləyir. Nahara bir saat vaxt ayrılır. Amma vaxtında olmayan xidmət üzündən belə məkanlardan iki saata çıxmaq olmur”.

Dövlət Turizm Agentliyindən bildirildi ki, COP29-a hazırlıqlar çərçivəsində hotellər və digər yerləşmə vasitələrində veqan və vegetarian olmaqla, xüsusi menyuların hazırlanması və mətbəx idarəedilməsi ilə bağlı təlimlərin keçilməsi planlaşdırılır.




Foto: Rufat Mikayilov/Global Media Group

BANK-MÜŞTƏRİ MÜNASİBƏTLƏRİNİ TƏNZİMLƏYƏN YENİ QƏRAR

# İSTEHLAK KREDİTİ GÖTÜRMƏK ASANLAŞACAQ

İstehlak krediti alan zaman zamin tələbi ilə bağlı problem artıq həllini tapmaq üzrədir. Banklar kredit götürmək istəyən vətəndaşlardan həyat sığortası tələb edəcəklər. Ekspertlər düşünürlər ki, bu yenilik bir çox problemləri həll edəcək.






ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Vətəndaş banka kredit üçün müraciət etdikdə bir çox hallarda zamin duran şəxs tələb olunur. Lakin zaman keçdikcə insanlar bir-biri üçün zamin olmaqdan da çəkinirlər. Çünki vətəndaş vəfat etdikdə və ya krediti ödəmədikdə çətinlikdə qalan zaminlər olur. Artıq bu problemin həlli üçün də addımlar atılır. Belə ki, istehlak krediti götürən fiziki şəxslərin həyatının sığortalanması nəzərdə tutulur. Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev bildirib ki, bu yenilik zaminliyə tələbi xeyli azaldacaq.

Maraqlıdır, bu yenilik bank sistemində və kredit sahəsində başqa nəyi dəyişəcək?

**BANK XƏRCDƏN AZAD OLUR, VƏTƏNDAŞ İSƏ XƏRCƏ DÜŞÜR**

Sığorta eksperti İlkin İbrahimov bildirdi ki, yeni qərar uzun çəkən zaminlik məsələlərini həll etməyə yardımçı olacaq: "Bu qaydanın tətbiqinin məqsədi problemli kreditlərin azalması tədbirlərini daha real şəraitdə həll etməkdir. Yeni qaydanın tətbiqindən sonra zaminliklə bağlı problemlər aradan qalxacaq. Bunun əvəzində vətəndaşın üzərinə daha çox sığorta haqqı qoyulur. Bir tərəfdən könüllüdür, digər tərəfdən isə bank tərəfindən tələb olunur. Əgər sığortanız yoxdursa, kredit əldə edə bilmirsiniz. Yeniliyin tətbiqi banklar üçün problemlərin həllinə səbəb olacaq. Hansı ki, zaminlərlə bağlı aylarla məhkəmələrdə işlər uzanırdı. Bank buradakı xərclərdən də azad olacaq. Vətəndaşların isə hüquqları sağlamlaşacaq. Artıq zaminə ehtiyac olmayacaq, amma müəyyən qədər vəsait ödəməlidirlər ki, sığortalansınlar".

**SIĞORTA YOXDURSA, KREDİT DƏ OLMAYACAQ**

İ.İbrahimov sığortanın təşkili qaydalarını da izah etdi: "Vətəndaş və sığorta şirkəti arasında müqavilə bağlanılır. Kredit götürərkən həyat sığortası təklif ediləcək, yaşınızdan, sağlıq durumunuzdan asılı olaraq, sığorta haqqı az və ya çox ola bilər. Daha cavan şəxslər üçün şərtlər daha münasib, yaşlı insanlar üçün isə daha çox sığorta haqqı müəyyən ediləcək. Əgər kredit götürüldükdən sonra kredit götürənin başına bir iş gəlsə, onun borcunu sığorta şirkəti ödəyəcək. Yaxud kredit götürən əmək qabiliyyətini itirsə, onun kreditinin müəyyən qismi sığorta şirkəti tərəfindən qarşılanacaq. Sığorta olunmadıqda zamin tələb olunacaq. Vətəndaş bundan da imtina etdikdə, bank kredit verməkdən boyun qaçıracaq".




## BANK ÇƏTİN VƏZİYYƏTDƏ QALIR

İqtisadçı Elman Sadıqovun sözlərinə görə, həyat sığortası kredit götürməsəniz də çox faydalıdır: "Hazırda dünyada xəstəliklər, iqlim dəyişiklikləri səbəbindən sığorta sisteminə önəm verilir. Bu baxımdan Azərbaycanda da həyat sığortasının aktuallaşması yaxşı haldır. Bir tərəfdən sığortadan yığılan vəsait ölkə iqtisadiyyatına maliyyə qazandırır, digər tərəfdən vətəndaşlar gələcəyi sığortalamış olurlar".

E.Sadıqovun fikrincə, sığorta sistemindən səmərəli istifadədə banklar da maraqlıdır: "Əgər siz bir istehlak krediti götürüb həyatınızı sığorta etdirirsinizsə, vəfat etdikdə ödəniləcək kredit ailə üzvlərinizin və ya zamin duran şəxsin üzərində qalmır. İndiyə kimi kredit götürən şəxs vəfat etdikdə, onun ailə üzvləri və ya zamin olan şəxs məhkəməyə verilirdi. Ailə üzvləri ilə zamin arasında ciddi narazılıqlar yaranırdı. Kreditin zamin, yoxsa ailə üzvləri tərəfindən ödənilməsi mübahisəyə çevrilirdi. Zamin deyirdi ki, həmin kreditdən vətəndaş və onun ailə üzvləri xeyir görüb, mən niyə ödəməliyəm. Yaxud ailə üzvləri deyirdilər ki, bizim burada hər hansı hüquqi öhdəliyimiz yoxdur. Bu zaman bank çətin vəziyyətə düşürdü. Amma indi ailə üzvləri bu krediti ödəmək məcburiyyətində qalmayacaqlar".

## SIĞORTA HAQQININ MƏBLƏĞİ NECƏ MÜƏYYƏNLƏŞƏCƏK?

Azərbaycan Banklar Assosiasiyasının eksperti, bank məsələləri üzrə mütəxəssis Qorxmaz Ağayevin sözlərinə görə, yeni qaydalar təkcə kredit götürən vətəndaşlar üçün deyil, həmçinin əmanət qoyan şəxslər üçün də vacibdir: "Bank sisteminin əsas istehsal aləti puldur, daim dövr etməlidir. İstehlak kreditləri qaytarılmadıqda nəticədə əmanətçilərin vəsaitləri də təhlükə altına düşür. Sığorta sistemi olduqda, əmanətçilərin də maraqları qorunmuş olur".

Q.Ağayevin fikrincə, yeni qaydalar tətbiq edilərkən sığorta məbləği vətəndaşın aldığı məbləğdən asılı olaraq dəyişəcək: "Kredit götürən şəxslərə də sərf edəcək bəlli bir sığorta haqqı olacaq. Bu, sığorta müqaviləsi ilə müəyyənləşdiriləcək. Qiymət formalaşarkən vətəndaşın kredit məbləği nəzərə alınmalıdır. Zaminlik barədə qərar müştərinin ödəmə qabiliyyətinin qiymətləndirilməsi nəticəsində veriləcək. Həm yaşam sığortası, həm də zaminlik istənilə bilər. Amma hər bir halda, zaminlə bağlı tələblər bir qədər yumşalacaq".



**"BANKLAR KREDİT FAİZLƏRİNİ AŞAĞI SALACAQLAR"**

Ekspert qeyd etdi ki, bu dəyişiklikdən sonra bank sistemində müəyyən irəliləyişlər qeydə alınacaq: "Bankların istehlak kreditinə olan marağı bir qədər də artacaq. Biləcəklər ki, üzləşəcəkləri problemi sığorta kompensasiya edəcək. Bu zaman istehlak kreditlərinin həcmi böyüyəcək. Bu, kredit faizlərinin aşağı düşməsinə gətirib çıxara bilər. Həm kreditdən daha çox insan yararlanacaq, həm də bank risklərin minimum olduğunu gördükdə kredit faizlərini aşağı salacaq".

**Mübariz Ağayev:**
**"Qanunvericiliyə görə, sürücü yol-nəqliyyat hadisəsinin baş verməməsi üçün bütün mümkün tədbirləri görməlidir və bu, onun vəzifəsidir".**



# "PİYADA ÖZ HƏYATINI SÜRÜCÜYƏ ETİBAR ETMƏMƏLİDİR"







Piyadaların vurulması ilə bağlı xəbərlərə mütəmadi olaraq rast gəlirik. Cəmiyyətdə belə yanaşmalar var ki, qanun piyada vurulması ilə nəticələnən hadisələrdə əsas məsuliyyəti sürücülərin üzərinə qoyur. DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə şöbəsinin xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektoru, polis polkovnik-leytenantı Mübariz Ağayevlə söhbətləşdik.

**"İZLƏYİCİLƏR QƏZA ANINI BİR RAKURSDAN İZLƏYİRLƏR"**

● **Bəzən piyada hərəkətdə olan avtomobilin qarşısına çıxır və qəza baş verir. Sonuncu bu tipli bir hadisədə sürücüyə 5 il həbs cəzası verildi. Videonu izləyəndə, çox adam fikir bildirdi ki, sürücünün nə günahı var idi?**

● Əksər hallarda yol-nəqliyyat hadisələri ilə bağlı paylaşılan video görüntülər bir rakursdan çəkilmiş olur və izləyicilər də qəza anını məhz həmin rakursdan izləyirlər. Bu səbəbdən insanların müxtəlif subyektiv fikir bildirməsi anlaşılandır. Lakin, ölümlə, yaxud xəsarətlə nəticələnən yol-nəqliyyat hadisəsi hüquqi nəticə yaradır və hüquqi faktdır. Bu hüquqi fakta da qanunvericiliyə uyğun yanaşılmalı, mütəxəssis rəylərinə istinad olunmalıdır. Ölümlə, yaxud xəsarətlə nəticələnən hər bir yol-nəqliyyat hadisəsi təhqiqat, istintaq orqanı tərəfindən araşdırılır, sübutlar toplanır, şahid bazası müəyyən olunur, ekspertizalar təyin edilir və s. Bütün bu proseslər prokuror nəzarəti altında aparılmaqla, cinayət və ya inzibati icraatla bağlı toplanmış materiallar baxılması üçün məhkəməyə göndərilir və əmələ hüquqi qiymət verilir.



*"Ədalət mühakiməsi zamanı sürücünün də hüquqları qorunur. "Piyada vurulursa, günahkar həmişə sürücüdür" deyimi hüquqi əsası olmayan subyektiv yanaşmadır."*

● **Qiymətləndirmədə hansı amillər rol oynayır?**

● Nəqliyyat vasitəsinin qəza anında olan sürəti, texniki sazlığı, yol və hava şəraiti, sürücünün sərxoş vəziyyətdə olub-olmaması, psixoloji və fiziki durumu, diqqəti yayındıracaq hərəkətlərlə məşğul olub-olmaması, eləcə də piyadanın nəqliyyat vasitəsinin önünə hansı şəraitdə çıxması, yolu müəyyən edilmiş yerdən keçib-keçməməsi, sərxoşluq vəziyyəti və sair bir sıra məsələlər burada önəmlidir.

● **Ekspertizanın rəyi çox vaxt "sürücü qəzanın qarşısını ala bilərdi" kimi olur.**

● Qanunvericiliyə görə, sürücü yol-nəqliyyat hadisəsinin baş verməməsi üçün bütün mümkün tədbirləri görməlidir və bu, onun vəzifəsidir. Əgər toplanmış sübutların məcmusu, təyin olunmuş müvafiq ekspertizaların nəticələri sürücünün qəzadan yayınmaq imkanının olduğunu təsdiq edirsə, lakin sürücü bunu etməyibsə və ya bacarmayıbsa, deməli, buna hansısa amillər səbəb olub. Həmin faktlara baxılır.

## QƏZALARIN ƏSAS SƏBƏBLƏRİ

● **Bəzi sürücülərin qəzanın qarşısını ala bilməməsinin əsas səbəbləri hansılardır?**

● Yol-nəqliyyat hadisələrinin başlıca səbəbi sürücülərin yolda sürət rejiminə əməl etməmələri, yaxud sürət həddini hava və ya yol şəraitinə uyğun seçməmələri, qarşıdan gələn nəqliyyatın hərəkət zolağına çıxma və ötmə qaydalarının pozulmasıdır. Məsələn, ötən il sürücülərin təqsiri üzündən baş vermiş yol-nəqliyyat hadisələrinin 41.5 faizi nəqliyyat vasitəsinin yüksək sürətlə idarə edilməsi ilə bağlı olub. Mümkündür ki, yola sahibsiz heyvan, uşaq, sərxoş və ya anlaqsız şəxs çıxsın. Və bu o demək deyil ki, sürücü yolda müəyyən olunmuş sürət həddini aşmadan yola çıxan şəxsi vurursa, məsuliyyət daşımır. Bəzən sürət həddi gözlənilir, amma sürücü diqqətsizliyi maneəni vaxtında görməyə və qarşısını almağa mane olur.

Deyək ki, sürücü sürət həddini mövcud vəziyyətə uyğun seçib, gümrah vəziyyətdədir və sair. Demək növbəti amil avtomobilin texniki vəziyyətidir.

Təbii ki, ədalət mühakiməsi zamanı sürücünün də hüquqları qorunur. "Piyada vurulursa, günahkar həmişə sürücüdür" deyimi hüquqi əsası olmayan subyektiv yanaşmadır.

● **Sürücülər deyirlər ki, Azərbaycanda piyada vurulması zamanı daha çox məsuliyyət sürücünün üzərindədir, amma piyada da yol hərəkəti iştirakçısıdır, onun da məsuliyyəti sürücü qədər olmalıdır.**

● Qanunvericiliyə əsasən, şəxsin mexaniki nəqliyyat vasitəsini idarə edə bilməsi üçün sürücülük hüququ olmalıdır. Bu mənada sürücünün üzərinə piyadalardan və digər hərəkət iştirakçılarından daha çox məsuliyyət düşür. Mülki Məcəllədə nəqliyyat vasitəsini idarə etməyin təhlükəli fəaliyyət növü olması qeyd edilir. "Yol hərəkəti haqqında" qanunda piyadaların da hüquq və vəzifələri təsbit olunub. Odur ki, piyadalar da üzərilərinə düşən vəzifələri yerinə yetirməli və məsuliyyət daşıdıqlarını bilməlidirlər.

● **Piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin bir qismi elə piyada zolaqlarının üzərində baş verir...**

● Piyada öz həyatını sürücüyə etibar etməməlidir. Qanunda göstərilir ki, piyada sürücünün ona yol verəcəyinə tam əmin olduqdan sonra yolu ləngimədən keçməlidir. Qeydə alınan rəqəmlər bir daha onu deməyə əsas verir ki, sürücülərlə yanaşı, piyadalar arasında da yol hərəkəti qaydalarına biganəlik hissi aradan qaldırılmalıdır.

● **Sürücülərin piyada ölümlərində məsuliyyəti məsələsində yumşaldılmalara gedilməsi ilə bağlı tez-tez təkliflər səsləndirilir.**

● Mövcud qanunvericiliyi sürücülərə münasibətdə sərt hesab ediriksə, onda məntiqlə bu gün sürücü məsuliyyətsizliyi səbəbindən baş verən yol-nəqliyyat hadisələrinin sayı az olmalı idi. Lakin, statistik göstəricilər bu iddianı təkzib edir. Odur ki, hazırda ölkəmizdə icra olunan yol hərəkəti təhlükəsizliyinə dair Dövlət Proqramında yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması vasitəsilə yol-nəqliyyat hadisələrinin sayının və bu hadisələr nəticəsində ölkəyə dəyən sosial-iqtisadi zərərin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# TAKSİ QİYMƏTLƏRİ KƏSKİN ARTACAQ?




İyulun 1-dən etibarən Azərbaycanda taksilər yeni qaydalarla fəaliyyət göstərməlidirlər. Lakin indiyə qədər cəmi 5131 sürücü taksi fəaliyyəti üçün icazə alıb. Yəni, rəsmi olaraq Bakıda hələlik bu qədər taksi fəaliyyət göstərə bilər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Taksilərlə bağlı yeni qaydaların qüvvəyə minməsinə cəmi iki həftə qalıb. İyul ayının 1-dən etibarən Azərbaycanda taksilər yeni qaydalarla fəaliyyət göstərməlidirlər. Qaydalardan ən vacibi isə taksi sürücülərinin təlimlərdən keçməsi və sürücülük fəaliyyəti üçün icazə (buraxılış kartı, buraxılış vəsiqəsi) kağızlarının alınmasıdır.

Məlumat üçün bildirək ki, ötən ilin avqust ayından etibarən, taksi sürücüləri təlimlərə cəlb edilir. Lakin indiyə qədər cəmi 5131 sürücü taksi fəaliyyəti üçün icazə alıb. Bu statistikanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) açıqlayıb. Agentlikdən verilən məlumata görə, təlim keçən sürücülərin sayı isə 21 879-a çatıb.

Yeni qaydalarla taksi icazəsi alanlar ölkədəki ümumi taksi sayının cəmi səkkiz faizini təşkil edir. Maraqlıdır, bu rəqəm Bakıda taksi yükünü qaldırmağa kifayət edirmi? Belə davam edərsə, taksi fəaliyyəti ilə bağlı vəziyyət necə olacaq? Sərnişinlər hansı "sürprizlər"lə qarşılaşa bilər?

### QAYDALAR HAZIRLANIB, AMMA ÇATIŞMAZLIQLAR VAR

Texnika elmləri üzrə fəlsəfə doktoru, nəqliyyat eksperti Fərhad Eyyubov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, taksi xidmətindəki çatışmazlıqları azaltmaq üçün görülən tədbirlər sistemi kompleks şəkildə aparılmır və burada narazılıqların olması qaçılmazdır: "Taksi daşımaları ilə bağlı çox ciddi problemlər var idi".



Fərhad Eyyubov

## TƏLƏBLƏRƏ UYĞUN SÜRÜCÜLƏR AZDIR

Onun sözlərinə görə, istər media, istərsə də cəmiyyətdə bu məsələlər daim müzakirə olunur, çıxış yolları axtarılırdı: "İndi vəziyyətdən çıxış yolu üçün müəyyən qaydalar hazırlanıb, amma çatışmazlıqlar var. İlk olaraq Bakı şəhərində nə qədər taksinin olması müəyyənləşdirilməlidir. Bəzi böyük şəhərlərdə əhalinin sayı bir milyondan artıqdırsa, bunların 7-10 faizi taksi xidmətindən istifadə edir. Əgər həmin şəhərlərdə ictimai nəqliyyat sistemi zəif işləyirsə, tələbatı ödəyə bilmirsə, bu faiz daha da artır. Bizdə hələ bu say dəqiq müəyyən olunmayıb. Hətta Bakıda nə qədər taksinin olması da dəqiq deyil. Bəzən 50-60, bəzən də 100 min taksi olduğu deyilir. Amma qeydiyyatdan keçənlərin sayı beş mindir. Bu, azdır".



### "BÖYÜK NARAZILIQ YARANACAQ"

Mütəxəssis deyir ki, dövlət qurumları taksi problemini həll etmək üçün ciddi addımlar atır və məsələləri dərhal həll etməyə çalışırlar: "Qanuni şəkildə problemlər tənzimlənməlidir. Amma bu zaman həm nəqliyyat vasitələri, həm də sürücülər tələblərə cavab verməlidir. Çünki taksi daşımalarının elmi cəhətdən əsaslandırılması mütləq lazımdır. Əlbəttə, tələbat çox olduğu üçün həm xidmətlərin keyfiyyətində, həm də taksi sayı və qiymətlərlə bağlı böyük narazılıq yaranacaq".

### "ƏHALİ BUNA HAZIR OLMALIDIR"

Mütəxəssis vurğulayır ki, hazırda görülən tədbirləri birmənalı şəkildə pisləmək olmaz. Biz bu yolu getməliyik və xidmətlərdə qayda-qanun olmalıdır. Amma təbii ki, buna dərhal keçid mümkünsüzdür: "Bu sistemə tədricən keçmək lazımdır. İndi beş min taksi qeydiyyatdan keçib, iki həftəyə maksimum 15-20 min icazə kağızı olsa belə, yenə də narazılıq yaranacaq. Çünki say tələbatı ödəməyəcək. Əsaslı dəyişikliklər edərkən, çatışmayan cəhətlərin olması mümkündür. Ancaq bunlar əhalini narazı salmadan yerinə yetirilməlidir. Məncə, taksi problemi qısa müddətə öz həllini tapmayacaq. Həll olunması üçün çalışmaq lazımdır. Həm əhali buna hazır olmalıdır, həm də taksidən istifadə edən sərnişinlərin və sürücülərin xidmət mədəniyyəti artırılmalıdır".

İcazə kağızı alan taksi sürücülərinin sayının az olma səbəblərinə gəldikdə isə, həmsöhbətimiz vurğulayır ki, tələblərə uyğun sürücülər azdır: "Taksi sürücüləri tələbləri ödəməyəndə ona qeydiyyat sənədi verilmir. Taksi sürücüləri yol hərəkət qaydalarını bilən, sağlam, insanlarla normal rəftar quran, şəhəri tanıyan olmalıdır. Belə sürücülər təəssüf ki, azdır. Kadrlar az olduğu üçün, bu çətinliklərlə qarşılaşırıq".

## "YENİ MAŞIN ƏVƏZİNƏ KÖHNƏ "PRİUS" GƏLİR..."

Nəqliyyat eksperti Adil Nəbiyev isə deyir ki, yeni sistem ciddi şəkildə bahalaşmaya səbəb olacaq: "Azərbaycanda 100 min taksi var, onun 70 minə yaxını Bakıdadır. 20 min taksi təlimlərdən keçib, cəmi beş min taksi icazə ala bilib. Bu gün Bakıda taksilərin az olmasının səbəbi budur. Bununla bağlı onlarla şikayət var. Taksi sifariş verirsən gəlmir, yaxud gələn taksinin də qiymət 3-4 qat baha olur. Neqativ hallar bununla kifayətlənmir. Məsələn, sən yeni maşın gözləyirsən, çünki taksi şirkətində təzə maşın kimi qeydiyyatdan keçib, amma ardınca yenə köhnə "Prius" gəlir. Başqa nömrə, fərqli maşın. Bu, çox təhlükəli məqamdır və sürücülər bundan istifadə edirlər. Bizdə bu sahədə çoxlu boşluqlar var və nəzarət sıfıra bərabərdir. Xaricdə bu hallara görə ciddi cərimələr nəzərdə tutulur, bizdə isə bunu rahatlıqla edə bilirlər".

### QAYDALAR CİDDİLƏŞSƏ DƏ...

Mütəxəssis deyir ki, beş min rəsmi rəqəmdir, qanunsuz şəkildə kifayət qədər taksi fəaliyyət göstərir: "Bu gedişlə ilin sonuna kimi taksilərin yarısı belə, icazə kağızı almayacaq. Bu da qiymət artımına gətirib çıxaracaq. Bu normaldır, say azaldıqca qiymət artmalıdır. Keyfiyyətdə isə hələ üstünlük müşahidə olunmur. Fikrimcə, problem həll olunmayacaq, vaxtı uzatmaq məcburiyyətində qalacaqlar. Çünki çox adam işsiz qalır və istənilən yollara əl atırlar ki, iyulun 1-dən sonra fəaliyyət göstərə bilsinlər. Qaydalar ciddiləşsə də, sayın azalması bahalaşmaya gətirib çıxaracaq".

Qeyd edək ki, Nazirlər Kabinetinin taksi minik avtomobilinə dair müəyyənləşdirdiyi çoxsaylı tələblər arasında taksi avtomobillərinin yalnız ağ və qırmızı rəngdə olması, minimum "Avro-5" standartına cavab verməsi, istehsal tarixinin 15 ildən artıq olmaması, taksilərdə daşıyıcı və sürücü haqqında məlumat lövhəsi, taksometr, gediş haqqının nağdsız ödənilməsi üçün POS-terminalın olması var.



Adil Nəbiyev

# AZ SÖZLƏ BÖYÜK ROLLAR YARADAN AKTYOR

Məşhur Azərbaycan filmlərindəki yaddaqalan obrazlar İsmayıl Osmanlını sözün əsl mənasında xalq artistinə çevirib. Onun bütün rollarında zərgər dəqiqliyi olub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



İsmayıl Osmanlının adı teatr və kinosevərlərə yaxşı tanışdır. Məşhur Azərbaycan filmlərindəki yaddaqalan obrazlar aktyoru əsl xalq artistinə çevirdi. Bir çox tamaşaçı İsmayıl Osmanlının qəhrəmanı Kələntər dayı obrazına görə çox hiddətlənib. Film ekranlara çıxandan sonra aktyor tamaşaçılardan qəzəbli məktublar alıb...

60 ilə yaxın səhnə fəaliyyətində heç vaxt əsas qəhrəmanları oynamayan, 300-ə yaxın epizodik rolla səhnəyə çıxan İsmayıl Osmanlı SSRİ Xalq artisti fəxri adına qədər yüksəlib...

22 iyunda - böyük aktyorun vəfatı günündə onu sənət yoldaşları ilə andıq.

### "O, BİR MƏKTƏB QOYUB GETDİ..."

"İsmayıl Osmanlı 76 il ömür sürüb, 46 ildir haqq dünyasındadır", - deyə Akademik Milli Dram Teatrının qocaman aktyoru, Xalq artisti Rafiq Əzimov xatırlayır: "İsmayıl Osmanlı rəhmətə gedəndən sonra mən bu günə qədər onun qrim otağında, vaxtilə oturduğu stulda otururam. Hər dəfə qapını açıb içəri daxil olanda böyük məsuliyyət hissi keçirirəm. Professor İlham Rəhmli mənim haqqımda yazdığı kitabda epizodik rollar ifaçısı kimi yaradıcılığımı İsmayıl Osmanlının yaradıcılığına bənzədir. Mən bununla fəxr edirəm. Amma o da, mən də tək epizodik rollarda oynamamışıq, baş rollarda da səhnəyə çıxmışıq, çəkilmişik. Elə tamaşalar var ki, biz eyni rolları oynamışıq. "Nişanlı qız" da Qasım, "Ölülər"də Məşədi Oruc, "Aydın"da Mirzə Cavad... Mən bu rolları oynayarkən hər dəfə Osmanlının oyunu gözümün qabağına gəlir. Çalışıram ki, onu təkrar etməyim. O, bütün rollarında böyük ustalıqla çıxış edib, az sözlə böyük rollar yaradıb. Onun bütün rollarında zərgər dəqiqliyi var. İsmayıl Osmanlı aktyor ömrünün sonuna qədər Akademik Dram Teatrının səhnəsində oynayıb. O, teatr tariximizdə şərəfli yer tutduğu kimi, kinomuzda yaratdığı rollar da tamaşaçıların yaxşı yaddaşındadır". R.Əzimov mərhum aktyorla bağlı bir xatirəsini yada salır: "Bir gün onun oturduğu otağın qarşısından keçirdim. Qapı açıq idi, stulda oturmuşdu, əlində vərəq vardı, nəyəsə deyinirdi. Ayaq saxladım. Məni görüncə "gəl bura görüm...", - deyə çağırdı. Sən demə, "Yeddi oğul istərəm" filmindən sonra ona çoxlu məktublar yazıblar. Əlindəki məktubu uzadıb: "Oxu bunu", - dedi. Məktubda çoxlu təhqiredici ifadələr vardı. Həm utandım, həm də sevindim: "İsmayıl müəllim, görün, bu rolu necə yaratmısınız ki, tamaşaçıya belə təsir edib...", - dedim. Doğrudan da, Kələntər dayı obrazı hara, onun oynadığı komik rollar hara... İsmayıl Osmanlı bir məktəb qoyub getdi..."

### "O CÜR OĞLANI ÖLDÜRDÜN..."

"Yeddi oğul istərəm" filmindəki Cəlal rolunun ifaçısı Ənvər Həsənov "İsmayıl Osmanlı təkcə gözəl aktyor deyildi, həm də gözəl insan idi", - deyə xatırlayır: "Aramızdakı yaş fərqinə baxmayaraq, biz dost idik. Görüşürdük, çörək yeyirdik, söhbət edirdik". Ə.Həsənov xatırlayır: "Yeddi oğul istərəm" filmi təzə ekranlara çıxmışdı. İsmayıl dayı "Sovetski" məhəlləsində yaşayırdı. O məhəllədə yaşayanların çoxu "lotuluq" edirdi. Bir gün kinostudiyada məni görüncə qucaqlayıb öpdü, sonra da ağlamağa başladı. Səbəbini soruşdum: "Mən niyə bu filmə çəkildim? "Sovet-ski"də evdən çıxanda bir dəstə cavan qabağımı kəsdi, çiyinlərimdən tutub silkələdilər, söydülər: "O cür oğlanı öldürdün, niyə o rola çəkilmisən?", - dedilər. İsmayıl dayıya xeyli təsəlli verdim. Amma səhəri gün "Sovetski"yə gedib lotuların başçısı Ənvər adlı adamı tapdım. 5-6 nəfərlə oturub söhbət edirdi. "Nə məsələdir?" - deyə maraqlananda əhvalatı danışdım: "Ağsaqqal kişiyə, gözəl bir aktyora qarşı belə təhqiramiz hərəkət ediblər". Ənvər yanındakılara "gedin, həmin adamları tapıb yanıma gətirin", - deyə hirsləndi. Bir neçə gündən sonra İsmayıl dayı ilə yenidən kinostudiyada üzbəüz gələndə məni sevinclə qucaqlayıb öpdü: "Ənvər, sən neyləmisən? Gəlib əlimi öpdülər, qucaqladılar, üzr istədilər". İsmayıl dayının üzündəki sevinc indi də gözümün qabağındadır..."

## "ONU SEVMƏMƏK MÜMKÜN DEYİLDİ"

Aktrisa Xalidə Quliyeva İsmayıl Osmanlı ilə iki filmdə çəkilib. "Nəsimi" və "Bakıda küləklər əsir" filmlərində... Hər iki filmdə də aktyor onun atası rolunda oynayıb: "İsmayıl Osmanlı haqqında danışmaq çox rahatdır. Çünki o, heç kimə oxşamırdı. Onunla çəkiləndə doğma insan təəssüratı yaranırdı. Onu sevməmək, hörmət etməmək mümkün deyildi. Səs tembri tamamilə özünəməxsus idi, pıçıltı ilə danışırdı. Amma bu pıçıltı o qədər inandırıcı idi ki, həm sevgini, həm də nifrət və qəzəbi çatdıra bilirdi. Tamaşaçı da ona inanırdı. İsmayıl Osmanlı təmkinini, sakitliyini yaradıcı həyətə ötürə bilirdi. Onun özgüvəni vardı. Onunla oynayanda biz də özümüzə güvənirdik. Oyununda heç bir pafos yox idi, elə bil özünü oynayırdı. Həm cəlladı, həm Nəimini, həm müharibəyə gedən qızın atasını eyni şövq və inandırıcılıqla oynayırdı. Elə bil bütün rollar boyuna biçilmişdi. Bütün rolları ustalıqla çatdırırdı. O qədər səmimi idi ki, tamaşaçı onun oynadığı obraza laqeyd qala bilmirdi. Həyatda da sadə və təvazökar idi". Aktrisa "Bakıda küləklər əsir" filmindən bir xatirəsini danışır: "Mən həmin filmdə Solmaz rolunda çəkilmişəm. Gənc olmasına baxmayaraq, Solmaz könüllü müharibəyə gedir. Filmdə anamı Məhluqə Sadıqova, atamı İsmayıl Osmanlı oynayırdı. Bizim Bakı limanında vidalaşma səhnəmiz var. Böyük kütləvi səhnədir. Gəmiyə minməli idim. Pilləkənlərlə düşüb ata-anamla görüşməli idim. Mən bir az emosional aktrisayam. Pillələri qalxıb özümü həyəcanla atamın – İsmayıl Osmanlının üstünə atdım. Hiss elədim ki, diksindi. Həmin an elə bir emosiyanı gözləmirdi. Mən onlarla görüşüb gəmiyə tərəf yollandım. Şadam ki, qismətimə bu cür aktyorlar düşdü. Kino tariximizi yaradan aktyorlarla çəkildim. Onların hər biri bir məktəb idi..."




Rafiq Əzimov
Xalidə Quliyeva
Ənvər Həsənov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
22 İYUN ŞƏNBƏ 2024
www.kaspi.az



Pep futbol tarixini kökündən dəyişməyi bacaran simalardandır. Görünür, bundan sonra missiya onun tələbələrindədir.

# QVARDİOLA MƏKTƏBİ

Pep Qvardiolanın futbol tarixinin ən yaxşı məşqçilərindən olması danılmaz faktdır. İspaniya, Almaniya və İngiltərədə saysız uğurlar əldə edən "Mançester Siti"nin çalışdırıcısını "tiki-taka" üslubunu yeni səviyyəyə çatdırması artıq hamı tərəfindən qəbul edilib. O, həm də yeni nəsil məşqçilərin bir çoxunun müəllimi hesab edilir. Belə mütəxəssislərin sayı kifayət qədərdir və artıq çəkinmədən Pepin məktəb formalaşdırdığını demək olar. Bu yazımızda "Qvardiolanın məşqçilik ağacının budaqları"ndan bəhs edəcəyik. Son olaraq onlardan Vensan Kompani "Bavariya"ya, Entso Mareska "Çelsi"yə çalışdırıcı təyin edilib.

### ƏSAS RƏQİBƏ ÇEVRİLƏN ASSİSTENT

Mikel Arteta heç vaxt Pepin rəhbərliyi altında oynamasa da, "Barselona"nın keçmiş çalışdırıcısı 2016-cı ildə "Mançester Siti"nin baş məşqçisi təyin olunanda həmyerlisinin istedadını hiss edərək onu üç köməkçisindən biri etdi. Qvardiola Artetanın Premyer Liqadakı 11 illik futbolçuluq təcrübəsinə önəm verirdi və bu işdə onun dəstəyinə arxalana biləcəyindən əmin idi. Hətta həmin zaman çoxu Pepin Mikeli "Mançester Siti"dəki xələfi kimi formalaşdırdığını düşünürdü. Lakin Arteta keçmiş klubu "Arsenal"dan gələn təklifi geri çevirə bilmədi və 2019-cu ildə yenidən Londona köçdü. "Topçular"ı pillə-pillə yüksəldən gənc mütəxəssis 2022/23 mövsümündə Qvardiolanın əsas rəqibinə çevrildi. Onun komandası çempionluğu yalnız son turlarda uduzdu. Ötən mövsüm isə ikilinin rəqabəti daha üst səviyyəyə çatdı. "Mançester Siti" yalnız son turda rəqibini üstələyə bildi.



## ULDUZLARDA YAZILAN TALE

Qvardiola "Mançester Siti"də xələfi kimi Vensan Kompanini görür. Belçikalı keçmiş müdafiəçi 11 il "şəhərlilər"in uğurları üçün çalışdı və zəhməti hədər getmədi. Təkcə onu qeyd etmək kifayətdir ki, bu müddətə dörd Premyer Liqa çempionluğunu sığışdırmaq mümkün oldu. Üç il Qvardiola ilə işləyən Kompani əvvəlcə "Anderlext"də, ardınca "Bernli"də pas oyunu, hücum stilini tətbiq etdi. "Bernli"ni Premyer Liqaya yüksəltsə də, orada ilk mövsümü uğursuz alındı və komanda "Çempionşip"ə qayıtdı. Kompani isə gözlənilmədən "Bavariya"nın baş məşqçisi təyin edildi. Qvardiola onun gec, ya tez "Mançester Siti"yə qayıdacağına əmindir.

"Barselona" Qvardioladan sonra sanki uzun müddət axtardığı məşqçini tapa bilmirdi. Son illərdə isə bu böhran pik həddinə çatmışdı. "Barsa"da keçirdiyi dörd möhtəşəm il ərzində Qvardiolanın meydandakı gözü və qulağı olan Xavi, nəhayət, mirasa sahib çıxdı. Qətərin "Əl-Sədd" klubundakı fəaliyyətindən sonra 2021-ci ildə o, Kataloniya klubunda Ronald Kumanı əvəzlədi. Xavinin rəhbərliyi altında komanda 2022/23 mövsümündə "Real Madrid"i üstələyərək dörd illik fasilədən sonra çempion oldu, eyni zamanda Super Kuboku qazandı. Lakin onun məşqçiliyi heç də birmənalı qarşılanmırdı. Qvardiolanın stilindən fərqli olaraq "Barselona" nisbətən müdafiəyəmeyilli görünürdü. Lakin zaman göstərdi ki, bu, Xavinin əlindəki resurslara uyğun atdığı məcburi addım idi. Bu mövsüm katalonlar daha hücumameyilli idilər. Lakin komanda yekunda La Liqada ikinci yeri tutdu, Avropada isə yenə uğur qazanmaq mümkün olmadı. Bununla belə, istefaya göndərilən Xavinin məşqçi kimi hələ deməyə çox sözünün olduğu şübhə yaratmır.

## YAXIN GƏLƏCƏYİN ARTETA NÜMUNƏSİ

"Çelsi"nin yeni baş məşqçisi Entso Mareskanın da yolu Qvardiola ilə kəsişib. Əvvəlcə "Sevilya"da Xorxe Sampaolinin assistenti olan argentinalı daha sonra "Mançester Siti"nin gənc komandasının başına keçdi. Ardınca İtaliyada "Parma"nı çalışdıran və komandanı üst liqaya çıxara bilməyən Mareskanın karyerasında Qvardiolanın köməkçisi kimi "Mançester Siti"yə qayıtmasından sonra yeni səhifə açıldı. Ötən mövsüm isə Mareska "Lester Siti"ni Çempionşipdən Premyer Liqaya yüksəltdi. Bu yay "Çelsi"də Poçettinonu əvəzləyən Mareskanın yaxın gələcəkdə növbəti Arteta nümunəsi olacağını istisna etmək mümkün deyil.

### "MİNİ PEP"

Eyni meydançada "Bavariya" komandalarına məşq keçəndə və uzun-uzadı taktiki söhbətlər aparanda 10 il sonra iki əzəli rəqib - Mançester klublarının başında olacaqlarını yəqin ki, heç özləri də düşünmürdülər. Elə Erik ten Haqın "Qo Ehed İqls"ı Erediviziyaya yüksəltdikdən sonra Almaniya Regional Liqasında işləmək üçün "Bavariya"nın əvəzedici komandasına yollanması da hər kəsi təəccübləndirmişdi. Lakin orada tezliklə Qvardiola ilə qurduğu yaxın münasibət gələcək məşqçilik karyerasına böyük təsir göstərəcəkdi. Hətta "Bavariya"da ona "Mini Pep" ləqəbi də qoymuşdular. "Ayaks"dakı möhtəşəm mövsümlərdən sonra Eriki xilaskar kimi "Mançester Yunayted"ə baş məşqçi təyin etdilər. Düzdür, hələlik onun missiyanın öhdəsindən gəldiyini demək olmaz. Lakin klub rəhbərliyi onun "qırmızı şeytanlar"ın əvvəlki əzəmətini geri qaytaracağına inanır.

## XARİQƏLƏR YARADAN ALONSO VƏ DİGƏRLƏRİ



Bu mövsüm "Bayer"də xariqələr yaradan Xabi Alonsonun üzərində də Qvardiolanın təsiri danılmazdır. Düzdür, onun məşqçilik stilində Rafael Benitez və Joze Mourinyonun oyun stilindən daha çox şey tapmaq olar. Lakin "Bavariya"da Pepin rəhbərliyi altında oynayan ispaniyalının dominant oyun fəlsəfəsini və orta xətdə qısa pasların çoxluğu tərzini məhz Qvardioladan mənimsədiyini demək olar.

Yolu birbaşa Peplə kəsişənlərdən Xavyer Maskerano Argentina U-20 millisinin başında ilk addımlarını atır və onun da potensialı böyük qiymətləndirilir. "Qvardiola məktəbi"nin məzunları arasında təkcə Tyerri Anrinin məşqçi kimi gözlənilən effekti vermədiyini söyləmək olar. Lakin ümumən adı bu yazıda qeyd olunmayan, yolu birbaşa Qvardiola ilə kəsişməsə də, onun oyun fəlsəfəsini mənimsəyib tətbiq edən kifayət qədər mütəxəssis var.

